RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 35 (8914) ÇƏRŞƏNBƏ, 16 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# AĞDAM quruculuğun baş meydanına çevrilib

## İlham Əliyev xarabalıqlar üzərində düşmənə gözdağı verəcək möhtəşəm şəhər yaradır

Vətən müharibəsindəki Qələbədən ötən dövr ərzində işğaldan azad edilmiş şəhər və rayonlarımızda başlanan yenidənqurma prosesi getdikcə daha da genişlənir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya yatırmaq istəyən yerli və xarici şirkətlərin sayı artır.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında yenidən qurulan şəhər və rayonlarda reallaşdırılan ən müasir layihələr onu deməyə əsas verir ki, tezliklə dünya böyük Qayıdışa və Azərbaycanın iqtisadi qüdrətinə şahidlik edəcək.

### Ağdama 3-cü səfər, 3 obyektin açılışı, 5 təməlqoyma mərasimi

Hazırda yaşadığımız postböhran dövründə Azərbaycan öz gücünə, yeni heç kimdən yardım almadan işğaldan azad edilən torpaqlarında yenidənqurma, tikinti-quruculuq işləri aparır. Respublikanın digər bölgələrində də dövlət proqramında əksini tapmış layihələr gerçəkləşdirilir.

Bütün prosesləri diqqətdə saxlayan İlham Əliyev mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bütün layihələrin icrasına şəxsən nəzarət edir, müxtəlif təyinatlı yeni obyektlərin təməlini qoyur, bəzilərinin açılışını edib xeyir-duasını verir.

Təkcə ötən il Prezident işğaldan azad edilmiş 10 şəhər və rayona ümumilikdə 32 dəfə səfər edib, 21 sosial-iqtisadi obyekt və mədəniyyət abidələrinin açılışını edib, 37 obyektin təməlini qoyub, yenidənqurma işlərinin gedişatı ilə maraqlanaraq tapşırıq və tövsiyələrini verib.

Bu il isə İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfəri Ağdamdan başladı. Prezidentin və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdam və Ağcabədi rayonlarına etdiyi səfərlər və bu səfərlər çərçivəsində keçirilən görüşlər, təməlqoyma mərasimlərində təqdim olunan layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına tezliklə qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirdi.

İlham Əliyevin diplomatik məharətinin nəticəsi kimi bir güllə atılmadan azad edilən Ağdam hazırda quruculuğun baş meydanına çevrilib. İşğaldan azad edilən rayonlarımızın yenidən qurulması ilə bağlı hazırlanan baş planlar Ağdamdan başlayıb. İlk olaraq Ağdamın Baş planı təqdim edilib və bu gün həmin plana uyğun işlər sürətlə davam etdirilir.

Ardı 4-cü səh.



# NATO-nun Baş katibi Azərbaycan Prezidentinə təşəkkür etdi

Fevralın 15-də NATO-nun Baş katibi Yens Stoltenberq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Söhbət zamanı NATO-nun Baş katibi ötən ilin dekabrında NATO-ya səfəri və NATO-nun ali orqanı olan Şimali Atlantika Şurasında çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib.

Dövlətimizin başçısı dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib.

Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb.

NATO-nun Baş katibi Avropanın etibarlı qaz təchizatçısı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırıb.

***Prezidentin Mətbuat xidməti***

# Milli Məclis Prezidentin idarəetmənin təkmilləşdirilməsi ilə bağlı islahatlarına tam dəstək verir

**Fevralın 15-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasa başlamazdan əvvəl parlamentin Sədri Sahibə Qafarova onun başçılığı ilə Milli Məclisin nümayəndə heyətinin fevralın 1-dən 7-dək Baltikyanı ölkələrə rəsmi səfəri barədə qısa məlumat verib.**

Sədr  xatırladıb ki, Latviya, Litva və Estoniya Şərqi Avropanın böyük geosiyasi əhəmiyyətə malik olan bölgəsində yerləşirlər. Hər 3 ölkə Avropa İttifaqının və NATO-nun üzvüdür. Həm Azərbaycanın, həm də Baltikyanı dövlətlərin rəhbərliyi dinamik xarakter daşıyan ikitərəfli münasibətlərin inkişafına böyük diqqət yetirirlər. Bu ölkələr Azərbaycanla müxtəlif sahələri əhatə edən qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri saxlayırlar. Milli Məclisin nümayəndə heyətinin rəsmi səfərinin məramı da ikitərəfli siyasi dialoqun dərinləşməsinə töhfə vermək, xüsusən də dövlətlərarası münasibətlərin önəmli bir istiqamətini təşkil edən parlamentlərarası əlaqələrin inkişafı yollarını nəzərdən keçirmək idi.

Nümayəndə heyətinin Baltikyanı ölkələrə səfəri Latviyadan başlayıb, daha sonra isə Litva və Estoniya ilə davam edib.

Ardı 3-cü səh.

# Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə



Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz bu il Azərbaycan ilə Almaniya arasında diplomatik əlaqələrin qurulmasının otuz illiyini qeyd edəcəyik. Bu dövr ərzində ikitərəfli səviyyədə nail olduğumuz siyasi dialoq, bir sıra sahələrdə formalaşmış qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

İnanıram ki, dövlətlərarası münasibətlərimiz və səmərəli əməkdaşlığımız istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2022-ci il*

# Yeni Azərbaycançılıq məfkurəsi ilə yeni hədəflərə doğru!

Tarixi zərurət, obyektiv reallıq  və xalqın dövlətçilik arzularından qaynaqlanan tələbat nəticəsində Heydər Əliyev şəxsiyyətinin xilaskarlıq missiyasının reallaşması üçün Azərbaycanın tanınmış şəxsiyyətlərinin müraciəti əsasında yaranmış, qısa bir müddətdən sonra iqtidara gəlmiş, hazırda isə ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyasının sonuncu - VII qurultayından bir ilə yaxın vaxt keçir.

“Cənubi Qafqaz regionunun ən güclü siyasi qüvvəsinin özünün VII ali məclisinədək keçdiyi şərəfli yol “Müstəqil, yeni Azərbaycan” naminə şüarı ətrafında Heydər Əliyevin bir çağırışı ilə birləşən milyonlarla azərbaycanlının uğrunda canını və qanını əsirgəmədiyi ölkəmizin yeni müstəqil dövlət kimi dinamik inkişafı, hüquqi, demokratik bir cəmiyyət quruculuğu yolu ilə həmahəngdir.

Ardı 5-ci səh.

# Qrip, yoxsa «Omikron»?

## Pandemiya ilə mübarizədə vaksinasiya əsas şərt olsa da, sosial məsafəyə, qayda-qanunlara əməl etmək də vacibdir

Sağlamlıq insan üçün həyat deməkdir. Bu amil istər sosial-mədəni, istərsə də siyasi-iqtisadi baxımdan zaman-zaman vacib faktor hesab edilib.

2019-cu ilin dekabr ayında Çinin Uhan əyalətindən dünyaya yayılan, müxtəlif formalarda ona qarşı mübarizə üsulları tətbiq edilən COVID-19 koronavirus pandemiyasının qarşısı hələ də alınmayıb. Bu da o deməkdir ki, pandemiyaya qarşı birgə mübarizə davam etdirilməlidir.



Doğrudur, Ümumdünya Səhiyyə Təşkilatı, eləcə də Azərbaycan dövləti  pandemiyadan daha az itki ilə çıxılması üçün müəyyən tədbirləri həyata keçirməkdədir. Pandemiya yalnız insanların sağlamlığını əlindən almır. Bu bəla eyni zamanda dövlətlərin iqtisadiyyatına da həddindən çox mənfi təsirini göstərməkdədir.

Ardı 7-ci səh.

# Ermənistan iqtisadiyyatı “can verir”

## Ölkənin olan-qalan iqtisadi imkanı məmurlar arasında paylara bölünüb

Postmüharibə dövründə yaşanan ağır sosial-iqtisadi durum fonunda Ermənistanda rüşvətxorluq və korrupsiya ölkənin tənəzzülünün daha sürətli xarakter alması ilə müşayiət olunur. Sadə ermənilər açıq bildirirlər ki, bu problemin kökünü kəsmək indiki hakimiyyətin dövründə də mümkün olmayacaq.

Ekspertlər bildirirlər ki, iqtisadiyyatı can verən ölkədə inkişafdan danışmaq mümkün deyil. Vəziyyətin ağır olması bəzi məmurları məcbur edib ki, sözdə olsa da, korrupsiyaya qarşı mübarizədən danışsınlar. Ancaq hələ ki, ortada danışıqdan başqa heç bir əməli addım yoxdur. Vurğulanır ki, ölkədə bütün iqtisadiyyat sadəcə məmurlar arasında paylara bölünüb.

Bu günlərdə Ermənistanda yeni və daha etibarlı rüşvətvermə mexanizmi tapılaraq işə salınıb. Belə ki, “Lragir” qəzetinin müxbirləri apardıqları araşdırmanın nəticələrini dərc ediblər. Onlar apardıqları müşahidələrin və adlarının açıqlanmasını istəməyən qumarxana sahiblərinin, bəzi rüşvət verən adamların fikirlərinə əsasən bildiriblər ki, artıq Ermənistanda rüşvət qumarxanalar vasitəsilə verilir.

Ardı 7-ci səh.

# Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 1-dən himayədar ailə sahəsində dövlət siyasətinin, tənzimləmənin və dövlət nəzarətinin, o cümlədən himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılması, valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə (bundan sonra - müəssisə) yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların müəssisələrdən ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsi və müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanması sahəsində səlahiyyətlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi ilə, habelə bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş digər məsələlərlə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini yeddi ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, 2022-ci il noyabrın 1-dək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin təkmilləşdirilməsini təmin etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Aidiyyəti dövlət orqanları (qurumları) bu Fərmandan irəli gələn məsələlərin həllinə zəruri kömək göstərsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2022-ci il*

# ADA Universitetinin xaricə ezam olunan diplomatlar üçün keçirdiyi silsilə seminarlar başa çatıb

ADA Universitetinin İxtisasartırma proqramlarının təşkilatçılığı ilə fevralın 7-14-də keçirilən və xaricə ezam olunan diplomatlar üçün nəzərdə tutulan silsilə seminarlar başa çatıb.





ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, seminarlarda Azərbaycanın Amerika, Asiya və Avropadakı 26 ölkədə yerləşən nümayəndəliyində fəaliyyət göstərəcək 33 gənc, orta və yüksəkrütbəli diplomat iştirak edib. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Naxçıvan Muxtar Respublikası İdarəsini təmsil edən diplomatlar da Bakıya səfər edərək seminarlarda iştirak ediblər.



Seminar silsiləsinin açılış sessiyasında xarici işlər nazirinin müavini Fariz Rzayev, ADA Universitetinin İcraçı prorektoru Fariz İsmayılzadə, XİN-in Kadrlar idarəsinin rəisi Raman Məmmədov, şöbə rəisi Günay Rəhimova və ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva çıxış ediblər.

Aygün Hacıyeva qeyd edib ki, İxtisasartırma proqramları daha əvvəl də bilavasitə xaricə ezam olunan diplomatlar üçün seminarlar təşkil edib və indiyədək bu seminarlarda 50-dən çox diplomat iştirak edib. Lakin budəfəki seminarların ADA Universiteti üçün tarixi əhəmiyyət kəsb etdiyini ifadə edən Aygün Hacıyeva əlavə edib ki, İxtisasartırma proqramları ilk dəfədir məhz bu seminar çərçivəsində diplomatların xaricə ezamiyyətdən öncə Şuşaya səfərini təşkil edib.

İştirakçılar ADA Universitetinin idarəetmə və professor-müəllim heyəti üzvlərinin, yerli dövlət qurumlarını təmsil edən yüksəkrütbəli məmur və diplomatların, beynəlxalq münasibətlər, enerji məsələləri, o cümlədən mədəniyyət sahəsi üzrə fəaliyyət göstərən ekspertlərin xarici siyasət, regional və qlobal müstəvidəki yeniliklər və enerji siyasəti ilə bağlı mühazirələrini dinləyiblər.

ADA Universitetinin idarəetmə və professor-müəllim heyəti ictimai diplomatiyanın yeni trendləri, peşəkar ünsiyyət bacarıqları, pandemiyanın meydana çıxardığı çətinliklər, rəqəmsal diplomatiya və sosial medianın rolu mövzusunu tədris ediblər. Qarabağda mədəni irsin bərpası mövzusu da seminarın tədris proqramına daxil edilib.

Seminar çərçivəsində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevin iştirakı ilə müzakirə baş tutub. Müzakirədə rektor Paşayev ABŞ-da səfir olduğu dövr ərzində əldə etdiyi peşəkar təcrübəsini diplomatlarla bölüşüb.

"Əsl diplomat öz ölkəsini və peşəsini sevən diplomatdır", - deyə bildirən səfir Hafiz Paşayev diplomatlara ezam olunduqları ölkələrin rəsmi dilini öyrənməyi və həmin ölkələrə dair biliklərini zənginləşdirməyi tövsiyə edib.

Silsilə seminar zamanı Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov "Xarici siyasətdə yeni reallıqlar: XXI əsrdə diplomatiya" mövzusunda mühazirə ilə çıxış edərək diplomatlar üçün peşə bacarıqlarının və biliklərin mütəmadi olaraq inkişaf etdirilməsinin əhəmiyyətinə toxunub.

Azərbaycan Respublikasının sabiq xarici işlər naziri Vilayət Quliyevin iştirakı ilə keçirilən sessiyada ölkə maraqlarımızı xaricdə qoruyacaq diplomatları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

Silsilə seminarların bağlanış sessiyasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatlara sertifikatlarını təqdim edib.

Müasir dövrdə diplomatiyanın mahiyyətinin dəyişdiyini deyən Azərbaycan Respublikası Prezidentinin köməkçisi ölkəmizin xarici siyasət prioritetləri barədə ətraflı məlumat verib. Hikmət Hacıyev bildirib ki, uğurlu və peşəkar diplomat ezam olunduğu ölkədə ictimai rəyi qazanmağı, həmin ölkənin akademik və media qurumlarının nümayəndələri ilə ünsiyyətdə olmağı və yeni geosiyasi reallıqları nəzərə alaraq diplomatik münasibətləri tənzimləməyi bacarmalıdır.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Dubay Ekspo 2020"dəki Azərbaycan pavilyonu ilə tanış olub





**"Dubay Ekspo 2020" sərgisində Türkiyə Milli Gününün açılışında iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan pavilyonu ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, "Dubay Ekspo 2020"nin Azərbaycan üzrə baş komissarı, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov Türkiyə dövlətinin başçısına Azərbaycan pavilyonunun eksponatları haqqında ətraflı məlumat verib. Anar Ələkbərov qeyd edib ki, "Sabahın inkişafı bu gün verilən qərarlardan asılıdır" konsepsiyasını özündə əks etdirən milli pavilyondakı interaktiv elektron vasitələrdə Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir. Diqqətə çatdırılıb ki, pavilyonda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı iqtisadi və sosial sahələrdə davamlı inkişaf və innovasiyalar, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri haqqında məlumat verilir.

Prezident Rəcəb Tayyib Ərdoğan və onu müşayiət edən Türkiyənin daxili işlər naziri Süleyman Soylu, xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycan pavilyonunun eksponatları ilə tanış olublar.

"Qardaş Azərbaycanın "Dubay Ekspo"dakı təqdimatı iftixara səbəb oldu", - deyən Rəcəb Tayyib Ərdoğan Xalq artisti Alim Qasımov və Fərqanə Qasımovanın pavilyondakı canlı ifasından, "Sarı gəlin" mahnısından təsirləndiyini bildirib.

# İlham Əliyevin islahatları real nəticəsini verir

## Azərbaycan qlobal böhranın yaratdığı çətinlikləri sürətlə geridə qoyur

Son illərdə qlobal iqtisadiyyatda baş verənlər, o cümlədən neftin qiymətinin aşağı düşməsi əksər dövlətlərin iqtisadiyyatına müxtəlif dərəcədə öz təsirini göstərmişdir.



Koronavirus infeksiyasının yayılması və pandemiyaya çevrilməsi isə demək olar ki, bütün dövlətlərin iqtisadi həyatında hiss olundu. Bunun nəticəsidir ki, son iki ildə dünyanın hər yerində iqtisadi azalma baş verib.

### Ölkəmizdə iqtisadiyyat artır, sənaye potensialı yüksəlir

Azərbaycan iqtisadiyyatı qlobal iqitsadiyyatla sıx inteqrasiya olunmuş şəraitdə inkişaf etdiyindən dünyada baş verən proseslər təbii ki, respublikamıza da təsirsiz ötüşmədi. Ümumi daxili məhsul istehsalında, iqtisadiyyatın ayrı-ayrı sferalarında əvvəlki illərlə müqayisədə azalmalar özünü büruzə verdi. Lakin 2021-ci ilin yekunları göstərdi ki, milli iqtisadiyyatımız pandemiyanın yaratdığı çətinlikləri də geridə qoyub.

Fevralın 11-də "Qobu" Enerji Qovşağının açılışından sonra AZƏRTAC-a müsahibə verən Prezident İlham Əliyev keçən il iqtisadiyyatımızın 5 faizdən çox artdığını bəyan etdi: "Eyni zamanda ölkə iqtisadiyyatı artır, sənaye potensialı artır. Keçən il biz xalqımızı gözəl göstəricilərlə sevindirə bildik. Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb".

Dövlət Statistika Komitəsi də bildirir ki, 2021-ci ildə ölkədə 92857,7 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 7,2 faiz, neft-qaz sektorunda isə 1,8 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 9269,3 manata bərabər olub. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ildə 54,5 milyard manatlıq və ya 2020-ci illə müqayisədə 5,2 faiz çox sənaye məhsulu istehsal edilib.

Bütün bunlarla bərabər, 2021-ci ildə respublikamızın valyuta ehtiyatlarının 2,5 milyard dollar artması, o cümlədən xarici ticarət dövriyyəsində ixracın idxalı üstələməsi, 10 milyard dollardan çox müsbət saldonun yaranması ötən ilin Azərbaycan üçün uğurlu olduğunu təsdiq edən mühüm makroiqtisadi göstəricilərdir.

### Qlobal təsirlərə dözümlülük əhəmiyyətli dərəcədə möhkəmlənib

Ötən ilin makroiqtisadi göstəriciləri ürəkaçandır. Görünən odur ki, indiyədək bütün qlobal iqtisadi kataklizmlərdən layiqincə çıxan Azərbaycan pandemiyanın yaratdığı çətinlikləri də sürətlə geridə qoyur. Təbii ki, nailiyyətlərin təməlində Prezident İlham Əliyevin başlatdığı və davamlı şəkildə həyata keçirilən iqtisadi islahatlar dayanır. Bunun nəticəsində ölkənin sosial-iqtisadi potensialının artımına nail olunması ilə yanaşı, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü də əhəmiyyətli dərəcədə yüksəlib.

Azərbaycanın iqtisadi sferada nail olduğu artımlarla bağlı başqa bir mühüm məqam ondan ibarətdir ki, respublikamız bütün bu uğurlara müharibədən dərhal sonra nail olub. Dünya təcrübəsi göstərir ki, müharibədən çıxmış dövlətlər iqtisadi sahədə irəliləyişlərə dərhal nail ola bilmirlər, bunun üçün uzun illər lazım gəlir. Azərbaycanın isə müharibədən təzə çıxmış ölkə olması baxımından nail olduğu iqtisadi artımı ondan xəbər verir ki, respublikamızda gözəl iqtisadi mühit var. Eyni zamanda müsbət iqtisadi göstəricilərin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin fonunda əldə edilməsi bir daha Prezident İlham Əliyevin iqtisadi strategiyasının dövlətimizin qarşısında dayanan iqtisadi məqsədləri layiqincə təmin etdiyini göstərir.

Onu da qeyd edək ki, bu ildən maaşlar, pensiyalar, təqaüdlər əhəmiyyətli dərəcədə artırılıb. İki milyon yüz min insanı əhatə edən bu sosial paketin ümumi həcmi 1,5 milyard manatdır. Bütün bunlar respublikamızda gedən düzgün iqtisadi proseslərin və islahatların məntiqi nəticəsidir.

### Daha keyfiyyətli inkişaf üçün əsaslar yaranıb

Prezident İlham Əliyev "Qobu" Enerji Qovşağının açılışından sonra verdiyi müsahibədə 2022-ci ilin yanvar ayının da makroiqtisadi göstəricilərini diqqətə çatdırdı: "İqtisadi artım təxminən 6 faiz, qeyri-neft sektorunda ümumi daxili məhsul təxminən 9 faiz, qeyri-neft sənaye istehsalı sahəsində isə artım 24 faiz olmuşdur. Bu da rekord göstəricidir. Yəni bu, onu göstərir ki, müsbət dinamika bu il də təmin ediləcək".

İqtisadi reallıqlara əsasən, yanvar ayı adətən iqtisadiyyatda nəzərəçarpan rəqəmlərlə yadda qalmır. Lakin göründüyü kimi, Azərbaycanda iqtisadi inkişaf ilin birinci ayından sürətli templə əlamətdardır. Bu da 2022-ci ilin respublikamızın iqtisadi inkişafında mühüm mərhələ olacağına dəlalət edir.

Artıq Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Həyata keçirilən sosial-iqtisadi quruculuq və ərazi bütövlüyünün təmini Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm əsaslar yaradıb. Respublikamızın ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu dövrdə dərin struktur-institusional islahatlar hesabına və yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycanın iqtisadi qüdrəti daha da artırılacaq, işğaldan azad edilmiş bölgələrə tarixi qayıdış və məskunlaşma təmin ediləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# DSX-nin Göytəpə şəhərindəki hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

Fevralın 15-də Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, gənc əsgərlər təntənəli şəkildə hərbi andı qəbul etdikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı şəxsi heyətə çatdırılıb. Tədbirdə çıxış edənlər gənc əsgərlərin DSX-nin heyəti sırasına daxil olduqları günün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasından sonra sərhəd mühafizəsi tarixinin şanlı dövrünə təsadüf etdiyini vurğulayıblar.



İşğaldan azad olunmuş ərazilərimizdə hazırda dövlət sərhədlərimizin müdafiəsi və mühafizəsi üzrə zəruri infrastrukturun yaradılması istiqamətində işlərin sürətlə davam etdirildiyi, işğalçı düşmən qüvvələrinə qarşı mətinliklə döyüşmüş sərhədçilərin bu torpaqlarımızda dövlət sərhədlərinin toxunulmazlığını, milli maraqlarımızın müdafiəsini ən yüksək səviyyədə təmin etdikləri bildirilib.

Tədbirdə Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminlik bildirilərək onlara müvəffəqiyyətlər arzulanıb. Karantin və sosial məsafə qaydalarına əməl edilməklə təşkil olunan mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.



# Milli Məclis Prezidentin idarəetmənin təkmilləşdirilməsi ilə bağlı islahatlarına tam dəstək verir




*Əvvəli 1-ci səh.*

Fevralın 2-də Latviya Seyminin sədri xanım İnara Murniyetse və Latviyanın Baş naziri cənab Arturs Krişyanis Karinş ilə, fevralın 3-də isə Latviya Prezidenti cənab Eqils Levits ilə görüşlər keçirilib. Fevralın 3-də nümayəndə heyəti Litva Respublikasına yola düşüb və elə həmin gün Litva Seyminin sədri xanım Viktoriya Çmilite Nielsen, ertəsi gün isə Litva Prezidenti cənab Gitanas Nauseda və Litvanın xarici işlər naziri cənab Gabrielius Landsbergis ilə görüş keçirilib.

Fevralın 6-da və 7-də nümayəndə heyətimiz Estoniya Respublikasında olub. Burada Estoniya parlamentinin sədri cənab Yüri Ratas, xarici işlər naziri xanım Eva-Maria Liimets və Estoniya Prezidenti cənab Alar Karis ilə görüşlər olub.

Baltikyanı dövlətlərin ali vəzifəli şəxsləri ilə söhbətlər zamanı bu ölkələr ilə Azərbaycan arasında siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafından, o cümlədən parlamentlər arasında əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilib, münasibətlərin daha da dərinləşdirilməsi üçün böyük potensial olduğu qeyd edilib. Həmsöhbətlər təmsil etdikləri ölkələrin daim Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirməklə yanaşı, ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığını, Avropanın enerji təhlükəsizliyinə töfhələrini, COVID-19 pandemiyasına qarşı mübarizədə rolunu yüksək qiymətləndiriblər.

Milli Məclisin Sədri bütün görüşlərdə 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbədən sonra regionda yaranmış yeni reallıqlar barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan öz ərazilərini Ermənistanın 30 il sürən işğalından qurtararaq ərazi bütövlüyünü bərpa edib, bununla da BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını təmin edib. Artıq münaqişə tarixdə qalıb və işğaldan azad olunmuş ərazilərdə bu gün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir.

Sahibə Qafarova görüşlər zamanı bildirib ki, Ermənistan işğal altında saxladığı bütün şəhər və kəndlərimizi viran qoyub, tarixi, mədəni və dini abidələrimizi məhv edib. Spiker Azərbaycanın regionda daimi sülh və təhlükəsizliyin təmin olunmasını istədiyini, bu məqsədlə suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanması, bütün kommunikasiyaların bərpası və münasibətlərin normallaşmasına gətirib çıxaracaq sülh sazişinin imzalanması barədə Ermənistana bir sıra təkliflər verdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri bu il 30-cu ildönümü tamam olacaq Xocalı soyqırımı haqqında düşüncələrini bölüşərək Latviya, Litva və Estoniya parlamentlərinin Azərbaycanla dostluq qruplarının bu barədə verdikləri bəyanatların ölkəmizdə yüksək qiymətləndirildiyini bildirib.

Söhbətlər zamanı Sahibə Qafarova ölkəmizin həyata keçirdiyi layihələr və mövcud investisiya imkanları barədə də məlumat verib. Həmsöhbətlərinə Zəngəzur dəhlizinin strateji əhəmiyyətindən danışaraq qeyd edib ki, bu dəhlizin açılması nəinki region, həm də Avropa İttifaqının üzvü olan ölkələr üçün yeni imkanlar yaradacaq.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri haqqında məlumat verən spiker bildirib ki, Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzrə danışıqlar son mərhələdədir və sazişin 90 faizdən çoxu artıq razılaşdırılıb. Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlıq da böyük əhəmiyyət kəsb edir. Azərbaycan neftlə yanaşı, həm də "Cənub qaz dəhlizi" vasitəsi ilə Avropanı qazla təchiz edir. Bu isə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfə verir.

Baltikyanı ölkələrdə rəsmi görüşlərlə yanaşı, nümayəndə heyəti bir sıra tədbirlərdə də iştirak edib. Nümayəndə heyəti Latviyanın paytaxtı Riqa şəhərində "Azadlıq" abidəsini ziyarət edib və abidənin önünə əklil qoyub, həmçinin Latviya Milli İncəsənət Muzeyində və Latviya Milli Kitabxanasında olub.

Parlament nümayəndə heyəti Litvanın paytaxtı Vilnüs şəhərinin "Antakalnio" məzarlığında 1991-ci il 13 yanvar qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib və abidənin önünə əklil qoyub.

Estoniya Respublikasına rəsmi səfər çərçivəsində isə nümayəndə heyəti həmin ölkənin paytaxtı Tallin şəhərində Elektron Estoniya Brifinq Mərkəzini ziyarət edib və mərkəzin fəaliyyəti ilə tanış olub.

Çıxışına yekun vuran spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin Baltikyanı ölkələrə rəsmi səfərinin uğurlu olduğunu qeyd edib və bununla əlaqədar nümayəndə heyətinin hər bir üzvünə dərin minnətdarlığını bildirib.

Sonra iclasda cari məsələlərin müzakirəsinə başlanılıb.

Komitə sədri Bəxtiyar Əliyev, deputatlardan Hikmət Məmmədov, Rəşad Mahmudov, Rüfət Quliyev, Fazil Mustafa, Razi Nurullayev, Ceyhun Məmmədov, Elşad Mirbəşir oğlu, Naqif Həmzəyev, Bəhruz Məhərrəmov çıxışlarında parlament nümayəndə heyətinin Baltikyanı ölkələrə səfərini yüksək qiymətləndiriblər, aparılan danışıqların əhəmiyyətini qeyd ediblər.

Deputatlar bu günlərdə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış Şuşa Bəyannaməsinin iki ölkənin prezidentləri tərəfindən təsdiq olunaraq hüquqi qüvvəyə mindiyini bildirərək bunu iki qardaş ölkə tarixində müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizliyimizin təmin olunması baxımından mühüm addım kimi qiymətləndiriblər.

Deputatlar həmçinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Ağdama növbəti səfəri barədə fikirlərini açıqlayıblar. Dövlət başçısının Qarabağın yenidən qurulması ilə bağlı layihələr barədə ictimaiyyətə verdiyi məlumatları, o cümlədən Heydər Əliyev Fondunun töhfəsi olaraq mədəni-tarixi abidələrimizin bərpası istiqamətində həyata keçirilən işləri xüsusi vurğulayıblar. Çıxışlarda ölkə gündəmində olan bir sıra digər məqamlara toxunulub, seçiciləri narahat edən məsələlərdən bəhs edilib.

Daha sonra gündəlikdəki 11 məsələyə baxılıb.

Gündəliyin ilk iki sənədi - "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə İspaniya Krallığı Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələri beynəlxalq sənədlər olduğundan bir oxunuşda qəbul edilib.

İlk sənədi təqdim edən parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev dedi ki, saziş 2021-ci il sentyabrın 28-də Ankara şəhərində imzalanıb. Sənəd Azərbaycanla Türkiyə arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, idxal və ixrac olunan qida məhsullarının təhlükəsizliyinin təmin olunması və qida sektorunda ticarət əlaqələrinin mövcud potensialının artırılması məqsədi daşıyır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sazişlə bağlı komitənin müsbət rəyini bildirib, deputat Əli Məsimli isə təqdim olunan sənədin əhəmiyyəti barədə öz qeyd və təkliflərini açıqlayıb.

İkinci sənədi təqdim edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib ki, layihə 17 maddədən ibarətdir, 2021-ci il dekabrın 14-də Madrid şəhərində imzalanıb. Sazişdə hər iki dövlətin hökumət orqanları arasında əməkdaşlığın forma və metodları, qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi və digər məsələlər öz əksini tapıb. Qeyd edilib ki, bu qəbildən olan sənədlər artıq bir sıra ölkələrlə imzalanıb.

Saziş barədə Səməd Seyidov rəhbərlik etdiyi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin müsbət rəyini təqdim edib, deputat Razi Nurullayev isə fikirlərini açıqlayıb, suallarını səsləndirib.

"Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə məlumat verən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, dəyişikliyin məqsədi məhz idxal olunan aksizli mallar üzrə icbari tibbi sığorta haqlarının ödənilməsinə nəzarət mexanizminin yaradılmasının təsbit edilməsidir.

Qeyd edilib ki, qanunda sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən müştərək maliyyələşmə məbləği nəzərdə tutulub.

Komitə sədri Qənirə Paşayeva, deputatlar Soltan Məmmədov, Razi Nurullayev, Etibar Əliyev layihənin əhəmiyyətindən danışıblar, dəyişikliklərin günün tələbinə uyğun olduğunu söyləyiblər, suallarını, qeyd və təkliflərini səsləndiriblər. Komitə sədri Əhliman Əmiraslanov deputatların suallarını cavablandırıb, onları narahat edən məqamlara aydınlıq gətirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirib ki, sənəd Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkib hissəsi olan Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üzrə ayrılıqda yalnız dinc və müharibə dövrləri üçün maddi-texniki vasitələrlə təmin edilməsi qaydasının və təminat normasının müəyyən edilməsi məqsədilə, eləcə də beynəlxalq və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək aparılan döyüş əməliyyatlarında əldə edilmiş təcrübə əsasında hazırlanıb. Belə ki, bu təcrübənin təhlili nəticəsində Silahlı Qüvvələrin maddi-texniki vasitələrlə təmin edilməsi qaydasının və təminat normalarının müəyyən edilməsi zamanı dinc dövrlə real təhdid və səfərbərlik dövrləri arasında fərq olmadığı, fərqin yalnız dinc və müharibə (silahlı münaqişə) dövrləri arasında olduğu, həmçinin maddi-texniki vasitələrlə təmin edilməsi qaydasının və təminat normalarının hər bir qurum üçün ayrılıqda təsdiq edilməsinin daha məqsədəuyğun olduğu müəyyən edilib. Layihənin qəbulu Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üzrə ayrılıqda yalnız dinc və müharibə dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydasının və təminat normasının müəyyən edilməsinə zəmin yaradacaq.

Komitə sədri Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev layihə barədə öz fikirlərini bildiriblər.

Komitə sədri Ziyafət Əsgərov söylənən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin beşinci və altıncı məsələləri ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-biri ilə bağlı olan qanun layihələridir.

Sonra parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni ikinci oxunuşda təqdim edib. Bildirilib ki, layihə dəm qazından zəhərlənmələrin və qaz partlayışı hadisələrinin profilaktikası və qarşısının alınması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsini nəzərdə tutur. Sənədə əsasən qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, havalandırma və havadəyişmə xətlərinin müayinəsi və onlara texniki xidmətlə bağlı səlahiyyətlərin aidiyyəti dövlət qurumlarından qaz paylayıcısına ötürülməsi təklif olunur. Bu isə qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının müayinəsinə və texniki xidmətin səmərəliliyinin yüksəlməsinə, baş verən və baş verə biləcək neqativ halların daha operativ aradan qaldırılmasına, qaz paylayıcısının məsuliyyətinin yüksəlməsinə, qaz satışı və texniki xidmət sahəsində idarəçiliyin təkmilləşməsinə xidmət edəcək.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Qeyd edilib ki, təklif olunan dəyişikliklər qaz təchizatı və istifadəsi zamanı qanunvericiliyin tələblərinin pozulması ilə bağlıdır. Belə ki, dəm qazından zəhərlənmələrin və qaz partlayışı hadisələrinin profilaktikası və qarşısının alınması məqsədi ilə İnzibati Xətalar Məcəlləsinin 279-cu maddəsində təkmilləşdirilmə aparılaraq həmin maddəyə qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarına əməl edilməməsini nəzərdə tutan 279.0.1-1-ci maddənin əlavə edilməsi təklif olunur.

Digər dəyişiklik ətraf mühitə, insanların sağlamlığına və onların əmlakına təhlükə yarada bilən neqativ halların vaxtında müəyyən edilməsi, aradan qaldırılması, bu sahəyə nəzarətin gücləndirilməsi məqsədi ilə aparılıb. Bununla əlaqədar olaraq İnzibati Xətalar Məcəlləsinin 542-ci maddəsinin yeni redaksiyada təklif olunan sanksiyası ilə fiziki şəxslərin iki yüz manatdan dörd yüz manatadək, vəzifəli şəxslərin min manatdan min beş yüz manatadək, hüquqi şəxslərin iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulur.

Deputatlar Naqif Həmzəyev, Tahir Kərimli, İltizam Yusifov, Aydın Mirzəzadə, Fatma Yıldırım təklif olunan dəyişikliklər barədə fikirlərini açıqlayıblar. Deputat Kamal Cəfərov səsləndirilən fikirlərə münasibət bildirib.

Müzakirələrin sonunda qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Daha sonra iclasda Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli "Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə danışarkən sənədin ikinci oxunuşun tələblərinə tam cavab verdiyini söyləyib. Komitə sədri birinci oxunuşdan sonra sənəd ətrafında gedən müzakirələr zamanı səsləndirilən fikirlərə də münasibət bildirib.

Fəzail İbrahimli çıxışında qeyd edib ki, sənəddə İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadimlərinin təyin olunması, habelə dini qurumların, o cümlədən dini icmaların yaradılması və dövlət qeydiyyatı ilə bağlı müddəaların təkmilləşdirilməsi nəzərdə tutulub. Layihədə, həmçinin dini qurumların ianələri yalnız ənənəvi üsullarla deyil, eyni zamanda bank, poçt, plastik kart, elektron ödəmə sistemləri, yaxud internet vasitəsilə qəbul etməsi təklif olunur. Bu sahədə fəaliyyətin şəffaflığının təmin olunması məqsədilə ianə edilmiş pul vəsaitlərinin dini qurumlar tərəfindən qəbul edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan təsdiq edəcək.

Deputatlar Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı dəyişikliklər barədə öz qeydlərini səsləndirdikdən sonra vitse-spiker Fəzail İbrahimli deyilən fikirlərə münasibət bildirib.

Sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini birinci oxunuşda təqdim edərkən bildirib ki, təklif olunan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Prezidentinin 8 fevral 2022-ci il tarixli Fərmanının 1.1.1-ci maddəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin və Azərbaycan Respublikası Audiovizual Şurasının yaradılması ilə əlaqədar normativ hüquqi aktların uyğunlaşdırılması qeyd olunub. Bununla əlaqədar qanunun müvafiq maddələrinə lazımi düzəlişlər aparılıb və "Milli Televiziya və Radio" sözləri "Azərbaycan Respublikası Audiovizual" sözləri ilə əvəz edilib.

Müzakirələr zamanı Birinci vitse-spiker Əli Hüseynli deputat Qüdrət Həsənquliyevin dəyişiklik barədə səsləndirdiyi qeydlərə münasibət bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov mahiyyətcə bir-birinə bağlı olan növbəti iki məsələ - "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" (birinci oxunuş) və "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, ölkə Prezidenti tərəfindən təqdim olunan həmin qanun layihələri idarəetmənin təkmilləşdirilməsi sahəsində aparılan islahatların tərkib hissəsidir. Nəzərdə tutulan dəyişiklik vətəndaş məmnunluğuna xidmət edir, vətəndaşların müraciətlərinə baxılma mexanizmində yeniliklərin tətbiqi, büdcə vəsaitlərinin sərfiyyatının qənaəti baxımından vacibdir.

Gəncə şəhərinin inzibati ərazi bölgüsündə təklif olunan dəyişikliklərə əsasən, şəhərin tərkibindəki Kəpəz və Nizami rayonları ləğv edilərək Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrindən çıxarılır. Qeyd olunub ki, ləğv edilmiş Nizami rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri hesab edilir. Habelə ləğv edilmiş Kəpəz rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə Cavadxan, Hacıkənd, Məhsəti, Natəvan, Sadıllı, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri isə müvafiq olaraq Gəncə şəhəri tərkibində 3 və 4 nömrəli sahə Cavadxan, Hacıkənd, Məhsəti, Natəvan, Sadıllı, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri hesab edilir.

Bildirilib ki, Gəncə şəhərinin inzibati ərazi bölgüsündəki dəyişikliklərlə əlaqədar olaraq Azərbaycan Respublikasında bələdiyyələrin siyahısında da müvafiq düzəlişin edilməsi nəzərdə tutulub.

Deputatlar Müşfiq Cəfərov, Fazil Mustafa, Kamran Bayramov, Musa Qasımlı təqdim olunan dəyişikliklərə dair öz fikirlərini səsləndiriblər.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəlikdəki Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Milli Məclisin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirb ki, dəyişiklik Məcəllənin 102.4-2-ci maddəsinin təkmilləşdirilməsi ilə bağlıdır. Həmin maddədə qeyd edilir ki, sifarişçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra tikinti obyektinin istismarına icazə 2 iş günündən gec olmayaraq sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən icazə ləğv edilir və bu barədə məlumat 2 iş günü müddətində sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

Məcəlləyə təklif olunan əlavədə bundan sonra sifarişçinin hansı hərəkət edəcəyinə aydınlıq gətirilir. Əlavəyə əsasən, icazə ləğv edildikdən sonra sifarişçi tikinti obyektinin istismarına icazə verilməsi üçün təkrar müraciət edə bilər. Təkrar müraciətə yalnız dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd əlavə edilir. Müvafiq icra hakimiyyəti orqanı və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum müraciət daxil olduğu gündən 2 iş günündən gec olmayaraq tikinti obyektinin istismarına icazəni sifarişçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# AĞDAM quruculuğun baş meydanına çevrilib



*Əvvəli 1-ci səh.*

İlham Əliyev işğaldan azad olunan Ağdama 3-cü səfəri çərçivəsində "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak edib. Beləliklə də, azad edilmiş torpaqlarda inşa edilən yarımstansiyaların sayı 9-a çatıb.

Sonra Prezident Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək 2 müəssisənin, Ağdam Rayon Mərkəzi Xəstəxanasının, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoyub.

Dövlət başçısı həmçinin Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində bərpa-restavrasiya işlərinin gedişi və Prezidentin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olub, Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olub.

## Azərbaycanın elektroenergetika tarixində ilk dəfə

Prezidentin açılışını etdiyi Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi Azərbaycanın elektroenergetika tarixində bir ilkdir. Yəni ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.

Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatlar avtomatik şəkildə həyata keçirilir.

Prezidentin təməlini qoyduğu yaşayış binasına gəlincə, ərazidə ümumi sahəsi 1,55 hektar olan məkanda ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası inşa ediləcək. Mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr olacaq. Kompleksin tikintisinin 2023-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub. Növbəti mərhələdə isə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işləri aparılacaq.

İlham Əliyevin təməlini qoyduğu 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanası 6 hektardan çox ərazidə inşa olunacaq. Tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaq. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcək.

Növbəti mərhələdə Ağdam rayonu üzrə daha bir neçə səhiyyə müəssisəsinin inşası nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə burada Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxanalar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçikhəcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Tibb Kolleci də inşa olunacaq.

## Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir

Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması xüsusi önəm kəsb edir.

Qeyri-neft sektorunun inkişafına mühüm töhfə verən sənaye parklarında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində ölkəmizdə onların sayı 7-yə çatıb.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası, regionda mövcud olan yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır.

Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, ətraf bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Artıq sahibkarların böyük maraq göstərdiyi Ağdam Sənaye Parkının 5 rezidenti var. Hazırda İqtisadi Zonaların İnkişafı Agentliyində sahibkarlar tərəfindən təqdim edilən daha 10-dan çox layihəyə baxılır.

Parkın rezidenti "Smartpoint" MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Layihənin investisiya dəyəri 9,1 milyon manatdır. Layihə çərçivəsində yaradılacaq müəssisədə Türkiyə və İtaliya texnologiyalarından istifadə ediləcək. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Özbəkistana da ixrac olunması planlaşdırılır.

Digər rezident - "Dadaş-N" MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək. Məhsul istehsalında polipropilen, polietilen və poliakril kimi yerli xammaldan istifadə olunacaq. İstehsal prosesində Belçika və Çin texnologiyaları tətbiq ediləcək. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, MDB ölkələrinə ixrac olunması planlaşdırılır.

Beləliklə, yeni yaradılan sənaye zonaları, həmçinin Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

## Prezident Ağdamda iş adamlarına çağırış etdi

Səfər çərçivəsində Prezident və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış oldular.

Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid Ağdamın işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir.

Cümə məscidinin bərpa-restavrasiyasına Heydər Əliyev Fondu tərəfindən başlanılıb. Layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb. Bərpa işləri bütövlükdə tarixi görünüşə uyğun olaraq həyata keçiriləcək.

Görülən işlərlə tanışlıqdan sonra çıxış edən Prezident vurğuladı ki, Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılıb və qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq: "Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb. Ermənilər nəinki Azərbaycan xalqını, bütün müsəlman aləmini təhqir ediblər. Ağdam şəhərində, Ağdam rayonunda bu yarıdağılmış məsciddən başqa bir dənə də bina ayaq üstə deyil. Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir, onu görəcəklər".

Prezident Ağdamda iş adamlarına da çağırış etdi. Dövlət başçısı sahibkarları həm Ağdama, həm də işğaldan azad edilmiş bütün digər ərazilərə sərmayə qoymağa çağırdı. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb. Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda güzəştli kreditlər verilir: "Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar".

İlham Əliyev vurğuladı ki, azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin Baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar.

Təməli qoyulan mehmanxana və yaşayış binalarının əhəmiyyətindən də söz açan dövlət başçısı dedi ki, müasir mehmanxana təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq. Buraya böyük sayda gələcək qonaqlara lazımi şərait yaradılır. Altı evdən ibarət yaşayış kompleksi isə təqribən il yarıma - iki ilə inşa ediləcək, bəlkə də ondan da tez və beləliklə, Ağdamın hərtərəfli inkişafı təmin olunacaq.

Dövlət başçısı həmçinin Ağdamda reallaşdırılması nəzərdə tutulan digər layihələr barədə də məlumat verdi. Bəlli oldu ki, hazırda rayon üzrə kompleks tədbirlər görülür. Bunların sırasında elektrik enerjisi ilə təchizat, Ağdama qaz xətlərinin çəkilişi layihəsi, içməli suyun gətirilməsi, o cümlədən Xaçınçay su anbarının təmiri layihəsi builki investisiya proqramında yer alıb.

Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Prezidentin dediyi kimi, avtomobil yolu təqribən bir ilə hazır olacaq. Füzuli-Ağdam avtomobil yolunun çəkilişinə start verilib. Bu yol həm Füzuli və Ağdam şəhərlərini, həm də Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

İlham Əliyev əminliklə vurğuladı ki, bu gün görülən bütün işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq: "Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!"

## Bütün şəhərlər baş plan əsasında yenidən qurulacaq

Prezident Ağcabədiyə səfəri çərçivəsində də yeni obyektlərin açılışını edib. Dövlət başçısı yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni inşa olunan hərbi şəhərciyinin, Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun açılışlarında iştirak edib.

Prezident və birinci xanım Mehriban Əliyeva "Ağcabədi taxıl Aqropark"da və respublika əhəmiyyətli Ucar-Zərdab-Ağcabədi avtomobil yolunda həyata keçirilmiş işlərlə tanış olublar.

Beləliklə, görülən bu işlər, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələr onu göstərir ki, İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda misli görünməmiş tikinti-quruculuq işləri həyata keçirir. Qarşıda isə böyük işlər var. Prezidentin söylədiyi kimi, bu işləri maksimum səmərə ilə və keyfiyyətlə aparmaq üçün düşünülmüş addımlar planı olmalıdır. Bütün şəhərlər baş plan əsasında yenidən qurulacaq. Ağdamın, Füzulinin baş planları təsdiq edilib. Ağdam və Füzuli rayonlarının ictimaiyyəti bu planlarla tanış olub və öz müsbət rəyini verib. Hazırda yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin baş planları işlənilir. Onlar hazır olan kimi artıq əməli işlərə başlanılacaq.

Bir sözlə, İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri və səfərlər zamanı ən qısa zamanda görülən işlərə, bütün proseslərə birbaşa nəzarəti, eyni zamanda siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, Qarabağ təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək.

Erməni vandallarının 30 il ərzində darmadağın edərək daşını daş üstündə qoymadığı, Qarabağın giriş qapısı adlandırılan Ağdam isə yeni siması, möhtəşəmliyi ilə düşmənə gözdağı olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin regionda vəziyyətin və iqtisadi əlaqələrin normallaşması ilə bağlı mövqeləri Rusiyada yüksək qiymətləndirilir

Fevralın 15-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovla görüşdü.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səmimi keçən görüşdə Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi, mədəni-humanitar münasibətlərlə yanaşı, dini-mənəvi əlaqələrin də mövcud səviyyəsindən razılıq ifadə olunub.

QMİ sədrinin ötən ilin oktyabrında Moskva və bütün Rusiya Patriarxı Kirillin dəvətinə əsasən Rusiya Federasiyasına səfəri, Zati-müqəddəsləri Patriarx Kirillə görüşü, habelə dini liderlərin baş tutmuş üçtərəfli görüşünün nəticələri barədə fikir mübadiləsi aparılıb. Bildirilib ki, Rus Pravoslav Kilsəsinin sülhyaratma potensialı var və dini liderlərin onun vasitəçiliyi ilə baş tutan dialoqları sayəsində zamanında Ermənistan-Azərbaycan münaqişəsinin dini qarşıdurma xarakteri almasının qarşısı alınıb.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə Qafqaz Müsəlmanları İdarəsinin dinlərarası dialoq sahəsində səmərəli əməkdaşlıq münasibətlərinin mövcudluğundan, ölkəmizin dini həyatında, dini konfessiyalar müstəvisində fəal icma olaraq iştirak etməsindən razılıq bildirilib. Şeyxülislam qeyd edib ki, yaxın günlərdə Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı Qafqaz Müsəlmanları İdarəsində keçiriləcək anım tədbirində də Azərbaycandakı pravoslav icmasının nümayəndələri hər zamankı kimi iştirak edəcəklər.

İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan xalqının işğaldan azad etdiyi ərazilərdə gedən genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələri ilə yanaşı, vandalizmə məruz qalmış dini-mənəvi irsin dirçəldilməsi, məscidlərlə bərabər, pravoslav, alban-udi kilsələrinin, digər məbəd və ziyarətgahların yenidən qurulması, bərpası və qorunması sahəsində misilsiz işlər görüldüyünü qeyd edən Şeyxülislam A. Paşazadə bütün bunların Azərbaycan Prezidenti İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində həyata keçirildiyini qürurla bildirib. Qeyd edib ki, Azərbaycan Prezidentinin azad Qarabağa elə bir səfəri olmur ki, dini-mənəvi əhəmiyyətli abidələrə qayğı və dövlət himayəsini nümayiş etdirməsin. Multikultural dəyərlər ölkəsi olan Azərbaycanda bu ali diqqət təkcə məscid, İslam abidələrini deyil, xristian, yəhudi məbədlərini də ehtiva edir. İşğaldan azad olunmuş Qarabağ torpaqlarına səfər etmiş bütün xarici ölkə nümayəndələri, diplomatik korpus təmsilçilərinin bunun bilavasitə şahidi olduqlarını diqqətə çatdıran QMİ sədri gələcəkdə Azərbaycana səfər edəcək beynəlxalq təşkilatların ekspert missiyalarının da bu həqiqətləri qeydə alacaqlarına ümidvar olduğunu ifadə edib.

Vatikana səfəri barədə danışan QMİ sədri A. Paşazadə Papa Fransisklə söhbətində Rus Pravoslav Kilsəsinin uzun illər ərzində dinlərarası dialoq müstəvisində nümunəvi sülhyaratma fəaliyyəti barədə danışdığını və Vatikanın bu mövzuya diqqət nümayiş etdirdiyini bildirib. Vatikana səfərdə Azərbaycandakı pravoslav konfessiyasının rəhbərinin də nümayəndə heyətində təmsil olunmasını rusiyalı səfirin diqqətinə çatdırıb.

Şeyxülislam A. Paşazadə son zamanlar Rusiya və Ukrayna ətrafında yaşanan gərginlikdən xeyli narahat olduğunu, bu mövzunun tezliklə xoş məramla həllini tapması, iki yaxın qardaş olan xalqlar arasında münasibətlərin yoluna qoyulması üçün dualar etdiyini bildirib. A. Paşazadə təklif irəli sürüb ki, xalqlar arasında mövcud gərginliklərin aradan qaldırılması, anlaşılmazlıqlara, suallara cavab tapılması istiqamətində dini liderlərin böyük rol oynamasını nəzərə alaraq, postsovet məkanında sülh, qarşılıqlı anlaşma naminə Rus Pravoslav Kilsəsinin böyük nüfuza malik başçısı Patriarx Kirillin rəhbərliyi ilə Ukrayna din xadimlərinin də iştirak edəcəyi beynəlxalq forumun çağırılması məqsədəuyğun olardı. MDB Dinlərarası Şurasının həmsədri olaraq QMİ sədri A.Paşazadə Uca Yaradana xoş gedən bu yolda öz səylərini əsirgəməyəcəyini bildirib.

QMİ sədri Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mərhum Arxiyepiskopu Aleksandrın əziz xatirəsini hər zaman andığını və onun Azərbaycan-Rusiya mənəvi əlaqələrinin inkişafına uzun illər ərzində verdiyi töhfələri yüksək dəyərləndirdiyini deyib.

Rusiyanın ölkəmizdəki səfiri M. Boçarnikov Şeyxülislamla görüş imkanına görə təşəkkürlərini bildirib və Rusiya ilə Azərbaycan arasında geniş spektr üzrə münasibətlərin hər iki dövlətin mənafeləri naminə uğurla davam və inkişaf etdiyini vurğulayıb. Bildirib ki, Rusiyada Azərbaycan Prezidenti İlham Əliyevin regionda vəziyyətin və iqtisadi əlaqələrin normallaşması ilə bağlı mövqeləri bütün tərəflər üçün faydalı kimi yüksək qiymətləndirilir.

Dövlət başçılarımızın səyləri sayəsində ölkələrimiz arasında siyasi, ticari-iqtisadi, logistik əlaqələrin getdikcə dərinləşməsindən, kommunikasiya layihələrindən, çoxtərəfli əlaqələrin qurulmasından məmnunluğunu ifadə edən rusiyalı səfir Pus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında dinlərarası dialoq çərçivəsində nümunəvi dini-mənəvi əlaqələrin mövcudluğunu böyük dəyər kimi qiymətləndirib. Bu işdə böyük nüfuza malik dini lider olaraq Şeyxülislam A. Paşazadənin səylərinin, 40 ildən artıq müddət ərzində sülhyönümlü, xoşməramlı fəaliyyətinin böyük əhəmiyyət daşıdığını vurğulayıb. Xalqlarımız, dövlətlərimiz arasında mövcud dostluq, qardaşlıq, strateji əməkdaşlıq bağlarının qorunub saxlanılması, inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

# Əlilliyin yeni meyarlarının tətbiqi ilə bağlı sosial təminat məsələləri müzakirə olunub



Əlillik sahəsində bu il tətbiq olunacaq yeni meyarlar əlilliyin artıq məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizi müəyyən edilməklə təyin olunmasına və əlillik sisteminin mütərəqqi dünya təcrübəsinə uyğun təkmilləşməsinə imkan verir.

Bu fikir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq işçi qrupun iclasında vurğulanıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda yeni meyarların üstünlükləri qeyd olunaraq bildirilib ki, həmin meyarlar əsasında şəxsin 7 istiqamət - özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə həyat fəaliyyətinin məhdudlaşma dərəcəsi əsas götürülməklə təyinat aparılacaq.

Bu da əlillik təyinatlarına daha həssas və obyektiv, ünvanlı yanaşmanı təmin edir, eyni zamanda müvafiq kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarını artırır.

İclasda tətbiq olunacaq yeni meyarlarla bağlı sosial təminat, o cümlədən orqanizm funksiyasının pozulması meyarına uyğun şəkildə sosial ödənişlərin formalaşdırılması və həyata keçirilməsi məsələləri, müvafiq təkliflər müzakirə olunub.

1992
2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30



# Yeni Azərbaycançılıq məfkurəsi ilə yeni hədəflərə doğru!

*Əvvəli 1-ci səh.*

Bu illər ərzində Azərbaycanın əldə etdiyi tərəqqinin, iqtisadi-sosial inkişafın, vətəndaş rifahının bərqərar olmasının ideoloji sütunu kimi misilsiz fəaliyyətə imza atan YAP qazanılan bütün uğurların ilhamvericisi olmaqla yanaşı, həm də daim yeniləşən cəmiyyətlə birgə yenilənmiş, saflaşmış, müasir çağırışlara adekvat cavablar verməklə siyasi mübarizə cəbhəsində öncül yerini qoruyub saxlamışdır. Nəsillərin vəhdətinə əsaslanaraq xalqın bütün təbəqələrindən olan 100 minlərlə insanın bir ideya - Azərbaycançılıq, bir yol - Heydər Əliyev yolu və bir məqsəd - Azərbaycan uğrunda fəaliyyətini bir araya gətirərək onu ölkəmizin mənafeyi naminə səfərbər etməyə nail olmuşdur.

Onun gücü də məhz elə bundadır. Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan quruculuğuna rəhbərlik etdiyi dönəmlərdə onun həyata keçirdiyi daxili və xarici siyasəti mərkəzi qərargahdan ölkənin ən ucqar nöqtələrinə, hər bir vətəndaşa yetirməklə, onların istək, arzu və iradlarını isə mərkəzə çatdırmaqla qəbul edilən fəaliyyət planları, dövlət proqramları, formalaşdırılan siyasətlərdə nəzərə alınması üçün oynadığı əvəzedilməz rolundadır.

Hər bir evə, hər bir ailəyə yaxın olmasına, onların böyük Azərbaycan ailəsinin əsas nüvəsi olduğundan bütün bu proseslərin mərkəzində dayanmasına, bu səbəbdən də hər zaman dövlətə və dövlətçiliyə sadiq övladlar, məsuliyyətli vətəndaş formalaşdırılmasına ruhlandırmasındadır.

Sıralarında böyük üstünlük təşkil edən gənclərə geniş fəaliyyət imkanlarının yaradılması, onlarda vətənpərvərlik ruhunun möhkəmlənməsi, ölkədə aparılan davamlı islahatların həyata keçirilməsi və ictimai-siyasi sabitliyin qorunması işində gəncliyin enerjisi, fərqlənmək həvəsi və töhfə vermək arzularına hər cür dəstək olması isə partiyanın boy artımı və keyfiyyətcə yenilənməsinə stimul verməsindədir.

Bu səbəbdəndir ki, gücünü xalqın və onun müxtəlif təbəqələrinin dəstəyindən alan YAP məhz Heydər Əliyevin ona sədrliyi və ölkə Prezidenti kimi rəhbərliyi ilə Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların, fərqli dini baxışlara malik konfessiyaların vahid amal uğrunda fəaliyyətini əlaqələndirə bildi. Ölkənin bütün yaşayış məntəqələrində təşkilati və insan resursları şəbəkəsinə malik olmaqla, geniş xalq kütləsinin daha çox inandığı, sıralarına qatılmaqla öz siyasi talelərini bu partiya ilə bağlamağa hazır olduqları möhtəşəm bir siyasi qüvvəyə, monolit gücə sahib oldu.

Onun üzvləri və təəssübkeşləri arasında yeniyetmə gənclər, ictimai-siyasi proseslərdə bərabər təmsil olunmaq istəyən gənc qızlar, xalqın və dövlətin həyatında yaxından iştirak etməklə töhfə vermək istəyən qadınlar, öz həyat təcrübəsini bölüşməklə yeni nəslin formalaşması işinə dəstək verən ahıllar, ağsaqqal və ağbirçəklər, milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etməsi və gələcəyə ötürülməsi naminə bir çox ailə bütövlükdə Yeni Azərbaycan ailəsinə üzv olmağı məmnuniyyətlə seçdi.

Onların hamısını bir araya gətirən dövlətə, xalqa sevgi, Heydər Əliyev ideyalarına inam və sədaqət idi. Məhz bu əsasda həyata keçirilən fəaliyyət nəticəsində "Azərbaycanın müstəqilliyi əbədi, dönməz və sarsılmazdır" şüarı reallığa, Heydər Əliyev ideyaları isə onun inkişaf yoluna çevrildi.

Qarşıda isə "Qüdrətli və Zəngin Azərbaycan" quruculuğu kimi şərəfli missiya var idi. O missiyanı bu yola sadiqliyi ilə Azərbaycan xalqına və dövlətinə "yaxşı bir Prezident" olacağını vəd edən, həm siyasi, həm də fiziki mənada Heydər Əliyevin varisi, daha sonra müasir, inkişaf etmiş rifah dövləti quruculuğunu hədəf seçmiş İlham Əliyev davam etdirəcəkdi. Bunu həm Ulu Öndər, həm də onun xalqı istəmişdi. Bu mövqeyini xalqın mütləq əksəriyyəti növbəti seçim anında ona xaos və anarxiyanı deyil, sabitlik və inkişafı vəd edən namizəd olaraq İlham Əliyevə səs verərək təsdiq etmişdi. Onunla birlikdə Heydər Əliyev yolunu, ölkəmizin çiçəklənməsini, təhlükəsiz və ziddiyyətsiz ahəngdar inkişafını seçmişdi. Ölkənin ərazi bütövlüyü, suverenliyi naminə Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləmişdi. Növbəti həqiqət anının "Qalibi" də elə xalqın özü və ümumxalq partiyası olmuşdu.

İlham Əliyevin bu müddət ərzində bir neçə dönəm prezidentliyi və YAP-a sədrliyi dövrü öz dinamikliyi, bütün çağırışlara çevik cavabları ilə seçilən, ölkənin hər qarışına, sürətlə ötüb keçən zamanın hər saniyəsinə, ictimai-siyasi ab-havanın bütün parametrlərinə, xalqımızın hər bir nəfərinə hesablanmış siyasətin, taktiki gedişlərin, daxili və xarici təzyiqlərin azaldılmasına yönələn, məqsəd və hədəfləri, eyni zamanda nəticələri qabaqcadan proqnozlaşdırılan bir fəaliyyəti ehtiva edirdi.

Məhz Heydər Əliyev yoluna zamanın tələbilə yaradıcı münasibət nəticəsində əldə edilən yeni keyfiyyət yanaşmaları, kreativ düşüncə və ənənəvi dəyərlərin bir arada tutulması yeni dövr gəncliyinə istinad edərək ölkənin inkişaf istiqamətlərində dinamizm və modernləşmə meyillərinin möhkəmlənməsini şərtləndirdi. Mənfi stereotiplərin sürətlə aradan qaldırılmasını, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, bütün siyasi qüvvələrin konstruktiv dialoq vasitəsilə vətəndaş həmrəyliyi üçün səfərbər edilməsi sosial ədalətin bərqərar olmasına şərait yaradılmasına gətirib çıxardı.

Müxtəlif sosial qruplar arasında kəskin təbəqələşmənin yumşaldılmasına, həyata keçirilən dövlət siyasətinin sosialyönümlü olmasına, insan amilinin mərkəzə yerləşdirilməsinə şərait yaratdı.

Dini və etnik müxtəlifliyin inkişafa və zənginləşməyə xidmət etdiyini, multikultural dəyərlərin bu coğrafiyada yaşayan xalqların bir-birinə münasibətinin mahiyyətindən doğduğuna diqqətləri yönəltdi.

Yeni Azərbaycan Partiyasının demokratik ənənələrin inkişafına hələ özü müxalifət partiyası kimi qeydiyyatdan keçdiyi ilk illərdən verdiyi töhfələrə rəğmən ölkədəki siyasi qüvvələrlə münasibətlərində demokratik prinsiplərə, açıq və şəffaf fəaliyyətə üstünlük verməyi, bu sahədəki sağlam ənənələri siyasi dəyər kimi əsas götürməyi həm bəyan etdi, həm də ona bütün fəaliyyəti boyu sadiq qaldı.

Bütün bu nailiyyətlərin əldə edilməsinin, zaman keçdikcə həm sıralarının genişlənməsinin, nüfuzunun və təsir imkanlarının yüksələn xətlə artmasının, beynəlxalq siyasi partiya qrupları, o cümlədən Avropa və Asiya ölkələri siyasi partiyaları birlikləri və dost ölkələrin iqtidar və müxalifət partiyaları ilə ikitərəfli diplomatik, o cümlədən siyasi-iqtisadi münasibətlərimizin ruhuna uyğun əməkdaşlığının möhkəmlənməsinin əsas səbəbini, əlbəttə ki, onun öz fəaliyyətini uyğun qurmasında, həmçinin özünün proqram sənədi və nizamnaməsində bəyan edilən prinsip və qaydalara, qanunverici aktların tələblərinə, ən əsası isə insanlara, xalqımıza bəyan etdiyi hədəflərə çatmaq üçün davamlı, məqsədyönlü və yorulmaz bir şəkildə həyata keçirməsində axtarmaq lazımdır.

28 illik fəaliyyəti ilə Azərbaycanın iqtidar, regionun ən güclü və dünya miqyasında tanınan partiyası olaraq YAP hər gün daha artıq güclənən, inkişaf edən, iqtisadi-siyasi, sosial-mədəni və hərbi qüdrətini artıran ölkəmizin müstəqil, azad, demokratik vətəndaş cəmiyyəti quruculuğuna sadiq bir siyasi təşkilat kimi Azərbaycanla birgə böyüdü, mətinləşdi, xalqın inam və etimadına layıq olmaq üçün öz sıralarını saflaşdırmaqla zərərli meyillərə qarşı barışmaz mövqeyini ortaya qoydu.

Ölkədə gedən dərin islahatlar siyasətinin iştirakçısı və təbliğatçısı, yeniliklərə açıq, öz fəaliyyətinə tənqidi münasibətdən doğan prinsipiallıq nümayiş etdirərək ictimai-siyasi ab-havanın nəbzinə uyğun qətiyyətli addımlara hazır və qadir olduğunu göstərdi.

YAP-ın namizədi kimi yerli və milli seçkili orqanlardakı təmsilçilərinin, eləcə də təyinatlı vəzifələrdə olan üzvlərinin öz səlahiyyətləri və öhdəlikləri çərçivəsində, həmçinin ictimai və fərdi ölçüdə fəaliyyətlərini partiyanın ümumi məqsəd və məramına uyğun qurması məsələsini diqqətdə saxladı. Bu meyarları gözləməyənlərlə yollarını ayırdı. Həmçinin nümunəvi davranış sergiləyənləri həm partiya, həm də dövlət səviyyəsində mükafatlandırdı.

Bununla da YAP yüz minlərlə siyasi fəal insana, soydaşlarımıza obyektiv və qərəzsiz, hər kəsə yalnız xidmətləri müqabilində münasibətin yeganə meyar olduğunun örnəyini yaratdı.

YAP özünün VII qurultayına 29 illik fəaliyyəti, xalqa və dövlətə xidmətləri, ən əsası, bu illər ərzində Heydər Əliyev ideyalarının reallığa çevrilməsində fədakarlıq və qəhrəmanlıq üçün, öz həyatını ümumi məqsədlərə, dövlətimizin və xalqımızın mənafeyi naminə sərf etməyə hazır olan insanların partiyası kimi, ölkədə formalaşmış yeni siyasi konfiqurasiyanın mərkəzi subyekti, həmçinin onu qorumaq, inkişaf etdirmək uğrunda mübarizənin önündə gedən siyasi qüvvə kimi gəldi.

Bütün söylənilənlərin sübutu kimi bugünkü Azərbaycan, onun regionda və dünyadakı vacib mövqeyi, beynəlxalq proseslərin nüfuzlu aktoru kimi regional və qlobal miqyasda verdiyi töhfələr çıxış edir.

Ən nəzərəçarpan nəticə isə, əlbəttə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uzunömürlü ağır bir yükdən xilas olmaq, beynəlxalq və regional dairələrin iştirakı və dəstəyi ilə ərazilərin ilhaqı, işğalı etnik təmizləmə və soyqırımları ilə müşayiət olunan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi adlanan bir problemi hərbi-siyasi yolla, cəmi 44 günə həll etməsi ilə bu sahədə daşlaşmış stereotipləri və yanaşmaları kökündən dəyişməsi oldu.

Uzunmüddətli dondurulmuş münaqişələrin yalnız beynəlxalq güclərin deyil, indi artıq daha çox regional aktorların bilavasitə iştirakı ilə həll oluna biləcəyinə dair Azərbaycan nümunəsini ortaya qoymaqla proseslərin ağırlıq mərkəzini Azərbaycana doğru dəyişdi.

İlham Əliyevin qətiyyətli liderliyi, ordumuzun şücaəti, xalqımızın yenilməz ruhu sayəsində bütün dünya ictimaiyyəti ölkəmizin əldə etdiyi hərbi, siyasi, informasiya və diplomatiya sahəsindəki uğurunu qəbul etməklə yanaşı, indi onu ən müxtəlif baxış bucağından dəyərləndirməklə məşğuldur.

Regionda yeni siyasi, hərbi və iqtisadi reallıqlar Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin çoxvektorlu xarici siyasətinin ölkə daxilində əldə edilən vətəndaş həmrəyliyi, bütün siyasi qüvvələrin (kiçik istisna ilə) bir amal, bir məqsəd naminə Azərbaycan dövlətinin ətrafında birliyə söykənərək əldə etdiyi nəticələrdir.

Azərbaycanda 2018-ci ilin aprelində və 2019-cu ilin fevralında reallaşan erkən prezident, parlament seçkilərinin yaratdığı yeni siyasi konfiqurasiya ölkə və bölgə üçün qüvvələri səfərbər etməyin əsas dayaq nöqtəsi rolunu oynadı.

Bu prosesin uğurla sonuclanmasına yönələn fəaliyyətin önündə olmaqla, YAP və onun çoxminli üzvləri böyük töhfələr verdilər.

Ölkənin həyatında yeni bir dönəmin, yeni bir başlanğıcın əsası ölkədə fəaliyyət göstərən ictimai-siyasi qüvvələrin YAP-ın öncül mövqeyinə sayğılı mövqeyi ilə müşayiət olunan konstruktiv əməkdaşlıq sayəsində qoyuldu.

Odur ki, bütün bu tarixi uğurları qeyd edərək yeni dövrün çağırışlarına birgə cavab tədbirlərini müəyyənləşdirmək, ölkədaxili vətəndaş həmrəyliyinə istinad edərək siyasi qüvvələrin daha möhkəm birliyinə nail olmaq, qarşıda duran vacib məsələlərin birgə həlli yollarını müzakirə etməklə YAP-ın keçdiyi tarixi inkişaf mərhələlərini dəyərləndirmək, yeni hədəflər naminə yeni qərarlar qəbul etmək üçün YAP 2021-ci il mart ayının 5-də özünün VII qurultayını keçirdi.

Möhtəşəm Zəfərin doğurduğu böyük qürur və iftixar hissi ilə öz ali məclisinə toplaşan qurultay nümayəndələri qarşısında YAP-ın Sədri, cənab İlham Əliyevin dərin məzmunlu çıxışı keçilən tarixi yola obyektiv qiymət verilməsi ilə yanaşı, həm də partiyanın bu gündən sonra qarşısında dayanan əsas vəzifələri, YAP-ın yeni dövr üçün fəaliyyətinin əsas istiqamətlərini özündə əks etdirməklə yanaşı, ümumilikdə Azərbaycan Respublikasının, onun siyasi mənsubiyyətindən asılı olmayaraq bütün ictimai-siyasi cəhətdən fəal insanlarının, hər bir vətəndaşın, bütövlükdə isə hər bir azərbaycanlının qarşısında dayanan öhdəliklərin, onların yerinə yetirilməsi üçün vacib olan resurs və mexanizmlərin, hüquqi çərçivə və meyarların məcmusu idi.

Bu çıxış 29 illik çətin və şərəfli yolda əldə edilən nəticələrin üzərindən daim yeniləşən, inkişaf edən, öz xalqını layiq olduğu Qələbə ilə şərəfləndirən bir Liderin bu Qələbənin qorunması, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, insanların on illərlə çəkdiyi fiziki, iqtisadi və mənəvi əzablarına son qoymaqla öz yerinə-yurduna ləyaqətli qayıdışını, davamlı və dayanıqlı inkişafı təmin etmək, Azərbaycanı regionun ən güclü və qüdrətli dövlətinə çevirmək sahəsində yeni daha çətin çağırışlara hazırlığa təkan verən bir fəaliyyət proqramı idi.

Hansı ki, qurultay bu proqramın hər bəndinə uyğun qərarlar qəbul etməli, bütövlükdə partiyanın seçkili orqanının tərkibinin yenilənməsi və yeni proqram sənədinin işlənməsi haqqında partiyanın icra orqanına tapşırıqlar verməli idi.

Ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olan VII qurultayın qərarı ilə Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələri rəhbər tutaraq, 44 günlük müharibədən sonra yaranan obyektiv reallıqları ölkənin beynəlxalq aləmdə artan rolunun və mövcud vəziyyətdə yeridilən xarici, zəngin rifah dövləti yaradılması sahəsində daxili siyasətinin, regionda və ölkədə formalaşmış yeni siyasi konfiqurasiyanın diktə etdiyi vəzifələri özündə əks etdirən yeni proqram sənədi hazırlandı.

"Biz birlikdə güclüyük" şüarı altında hazırlanan bu strateji sənəd müxtəlif səviyyələrdə işçi müzakirələrdən sonra YAP İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli iclasında təsdiq edildi. Proqram hər biri ən müxtəlif sahələrdə partiyanın və onun üzvlərinin qarşısında dayanan vəzifələri nəzərdə tutan bölmələrin daxil olduğu 5 fəsildən ibarətdir.

Proqramın preambula hissəsində Azərbaycanın müstəqilliyinin bərpasını bəyan edən sənədlərin qəbulundan bir il sonra xaos, anarxiya, daxili qarşıdurmalar, xarici təzyiqlər, iqtisadi, sosial və hərbi sahədə tənəzzülə gətirib çıxaran siyasi kataklizmlər nəticəsində müstəqilliyi yenidən təhlükə altında qalan Azərbaycanı düşdüyü ağır və çətin durumdan xilas etmək məqsədilə ortaya çıxan təşəbbüslərin məntiqi nəticəsi olaraq YAP-ın təsis edilməsi, ölkədə demokratik siyasi sistemin və vətəndaş cəmiyyətinin yaranması, bazar iqtisadiyyatı yolu ilə ölkənin inkişaf etdirilməsi sahəsində müvafiq işlərin görülməsi üçün YAP və onun lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı barədə fikirlər yer alır. Ümummilli Liderin rəhbərliyi ilə YAP-ın yaxından iştirakı ilə Azərbaycan dövlətinin keçdiyi şərəfli inkişaf yolu, iqtisadi dirçəliş, milli-mənəvi dəyərlərin adət və ənənələrin müasir beynəlxalq standartların vəhdətindən yoğrulan azərbaycançılıq məfkurəsi və demokratik dəyişikliklər yolu ilə inkişafın müxtəlif mərhələləri barədə müfəssəl məlumat verilir.

"Müasir, qüdrətli və zəngin Azərbaycan" naminə çağırışla onu yerinə yetirməyin uğurlu formulunu təqdim etməklə özünü bir Prezident, YAP-ı isə regionun ən güclü siyasi qüvvəsi kimi tanıtdıran İlham Əliyevin apardığı siyasət ətrafında yaranan birlik, günbəgün artan beynəlxalq nüfuz, dünyanın ən güclü ordularından birinə sahib olmaqla Azərbaycanın itirilmiş torpaqlarını geri qaytarması, ədalət naminə ədalətli müharibə yolu ilə tarixi qələbənin qazanılması faktları əksini tapır.

Proqramda yuxarıda qeyd edilənləri vurğulamaqla YAP-ın Azərbaycanın inkişafına töhfə verən böyük sosial bazaya, güclü siyasi-intellektual potensiala malik qüvvə kimi gələcəkdə də öz məqsəd və vəzifələrini yerinə yetirmək sahəsində əzmkarlıq göstərəcəyinə inam ifadə edilir.

Siyasi dəyərlər və prinsiplər içərisində ilk yeri tutan "Heydər Əliyev yolu" ilə milli və qlobal çağırışların uzlaşdırılması əsasında varisliyə və təkamülə üstünlük verilməklə inkişafın istinad nöqtəsi kimi müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və ənənələrin inkişafı prinsipləri qeyd edilir.

Vurğulanır ki, YAP hakimiyyətə yalnız azad, sərbəst və gizli seçkilər yolu ilə çoxluğun rəyinin üstünlüyünü qəbul edərək gəlməyin tərəfdarıdır, hakimiyyətin mənbəyi kimi xalqın iradəsini ifadə edən xəttin siyasi sistemin əsası olduğunu qəbul edir. Demokratik ənənələrə mühüm siyasi dəyər kimi yanaşır və onları möhkəmləndirməyi özünün əsas vəzifəsi hesab edir.

Partiyadaxili münasibətlərdə partiya üzvlərinin, ilk növbədə, təşəbbüskarlıq, peşəkarlıq və işgüzarlığa əsaslanan şəxsi inkişafına yalnız sağlam rəqabətə, etik davranış qaydalarının gözlənilməsinə və milli dəyərlərə uyğun nail olunmasını təşviq edir.

Partiya yeniliyin və müasirliyin tərəfdarı kimi çıxış edir, amma milli köklərə bağlılığı, tarixi adət-ənənələri, mənəvi-əxlaqi dəyərləri qorumağı əsas vəzifələrdən biri hesab edir.

Əsas hədəfləri, ilk növbədə, Heydər Əliyev irsinin təbliği və təşviqi, güclü iqtisadiyyat və davamlı inkişaf, inklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı olan YAP-ın hər bir üzvü dövlət və cəmiyyət qarşısındakı öhdəliklərini, partiya özü isə bir siyasi təşkilat olaraq fəaliyyətini şəffaflıq, azad rəqabət və plüralizm kimi prinsiplərə uyğun icra etməklə yerinə yetirməli, ictimaiyyət qarşısında hesabat verməlidir.

Həmçinin vətəndaş cəmiyyətinin inkişafı naminə demokratik dəyərlərə söykənən ictimai münasibətlərin inkişafına, vətəndaş həmrəyliyinə, milli maraqların üstünlüyünə əsaslanan siyasətə dəstək verməli və onu təşviq etməlidir.

YAP-ın proqramı bütün dünya azərbaycanlılarını birləşdirən dəyər olaraq Azərbaycan dilinin inkişafını və mövqeyinin möhkəmləndirilməsini bütün soydaşlarımızın birliyi və həmrəyliyini, milli irsin, mənəvi dəyərlərin qorunmasını, gələcək nəslə ötürülməsini daxili və xarici siyasətin reallaşması sahəsində əsas hədəflər kimi müəyyən edir.

Multikultural dəyərlərin qorunmasını, mədəniyyətlərarası dialoqun qlobal miqyasda inkişafının əhəmiyyətini xüsusi vurğulayır. Elmi, mədəni və humanitar əlaqələrin inkişafını beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin əsas dayaq nöqtələri olduğunu təsdiq edir.

Azərbaycanın yeritdiyi fəal xarici siyasətin uğurlarının, ilk növbədə, milli maraqların əsas götürülməsi ilə bağlı olduğunu, həmçinin beynəlxalq hüququn prinsiplərinə istinad etdiyini qeyd edərək, ikitərəfli və çoxtərəfli əsasda faydalarını vurğulayır. Bundan sonra da bu xəttə sadiq qalaraq ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu, azad cəmiyyət, təhlükəsiz həyat naminə hərbi, siyasi, iqtisadi və sosial sahədə maraqlarımızın qorunması üçün əlverişli daxili və xarici şəraitin yaradılmasına xidməti əsas vəzifə kimi müəyyənləşdirir.

Ordu quruculuğu sahəsindəki nailiyyətlərin bundan sonra da aparılacaq dövlət siyasəti sahəsində Azərbaycanın təhlükəsizliyini daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edir.

Vətən müharibəsində qazanılmış parlaq qələbəni müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həm Silahlı Qüvvələrimizin, həm də Heydər Əliyev yolu ilə Azərbaycanı inkişaf etdirməyi özü üçün amal, onun irsini ideya siyasi məktəb, YAP Sədri və ölkə Prezidenti kimi İlham Əliyevi bütün dünya azərbaycanlılarının Lideri seçmiş həmvətənlərimiz və soydaşlarımızın birliyinin və həmrəyliyinin məntiqi nəticəsi kimi dəyərləndirir.

Ölkədə yaranmış yeni siyasi konfiqurasiyanın daha da möhkəmlənməsi və bölgədə formalaşmaqda olan, artıq ilkin nəticələrini görməkdə olduğumuz yeni reallıqların başlanğıcı və daha artıq istinad nöqtəsi olduğunu vurğulayır.

İşğaldan azad olunmuş ərazilərə böyük Qayıdış prosesində YAP-ın əsas hədəfləri kimi layiqli yaşayış, geniş quruculuq, dayanıqlı məskunlaşma, regionun iqtisadi potensialından səmərəli istifadə, sürətli dirçəliş üçün stimullaşdırıcı tədbirlərin görülməsini əsas hədəflər kimi müəyyən edir.

"Müzəffər Liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" adlı V fəsildə YAP-ın bundan sonra da özünün bütün potensialını müasir, zəngin, qüdrətli Azərbaycanın tərəqqisinə səfərbər edəcəyini bəyan etməklə, Heydər Əliyev ideyalarına sadiq qalacağını, qarşıdakı məqsəd və vəzifələrin məzmun və hədəfləri baxımından həm də daha uzaq gələcəyə istiqamətləndiyini qeyd edir.

Bu günün partiyası olmaq haqqını, gələcəyin möhtəşəm siyasi qüvvəsinə olan iddialarını gerçəkləşdirən YAP-ın Sədri, qalib xalqın Prezidenti, müzəffər ordunun Ali Baş Komandanı, dünya azərbaycanlılarının qurucu və birləşdirici, həm də şəriksiz Lideri İlham Əliyevin rəhbərliyi ilə bu hədəflər getdikcə daha real və daha əlçatandır.

Yüksək intellekt, diplomatik məharət, milli maraqların qorunmasında qətiyyət və prinsipiallıq kimi yüksək şəxsi keyfiyyətləri, dünya liderləri içərisində günbəgün möhkəmlənən nüfuzu ilə seçilən, yorulmaz və fədakar əməyi ilə Azərbaycanı ən yüksək pillələrə qaldıran, özünün və təmsil etdiyi xalqın adını tarixin parlaq səhifələrinə yazdıran bir liderlə Azərbaycan qarşısında daha geniş üfüqlər, daha aydın sabahlar açılmaqdadır.

Bu sabahlara parlaq Günəş kimi doğan Azərbaycanın şəfəqlərinin hər birimizin həyatını və gələcəyini işıqlandıracağına isə bu gün heç kimin şübhəsi yoxdur.

*İndi sürətlə dəyişən dünya ilə birlikdə daim yeniləşən, istək, arzu və xəyalların gerçəkləşməsinə öz töhfəsini verən Yeni Azərbaycan Partiyası özünün VİI qurultayında təsdiq etdiyi "Yeni Azərbaycançılıq məfkurəsi" adlandıra biləcəyimiz yeni proqramında müəyyən etdiyi məqsədlərinə doğru daha inamla irəliləməkdədir.*

*"Yeni hədəflərə doğru" yolun açıq olsun, Yeni Azərbaycan!!!*

***Bahar MURADOVA,***
***YAP İdarə Heyətinin üzvü,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Gələcəkdə TAP-ın ötürücülük qabiliyyətinin artırılması nəzərdə tutulur

### Bu, Avropanın Azərbaycandan daha çox qaz idxal etmək istəməsi ilə bağlıdır

Keçən il və bu ilin yanvar ayında "Cənub qaz dəhlizi" ilə Gürcüstan, Türkiyə və Avropa istehlakçılarına 18,5 milyard kubmetrdən çox Azərbaycan təbii qazı çatdırılıb. Təkcə Avropa ölkələri 8,9 milyard kubmetr mavi yanacaqla təchiz olunub. Bu soyuq, şaxtalı qış fəslində istehlakçıların qaza ehtiyacı daha da artıb.

Cari il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev demişdir: "Bu il təxminən 19 milyard kubmetr qaz ixrac ediləcəkdir. Ondan 8 milyarddan çoxu Türkiyəyə, 7 milyarddan çoxu İtaliyaya ixrac ediləcək. Qalan qaz Gürcüstan, Bolqarıstan, Yunanıstan arasında bölünəcək. Yəni bu, böyük rəqəmdir və eyni zamanda, daxili tələbat da artır və artacaq. Biz daxili tələbatı ödəyirik. Bütövlükdə Azərbaycanda 45 milyard kubmetr qazın hasilatı gözlənilir. Qeyd etdiyim kimi, 19 milyard ixraca gedəcək, qalan hissə isə daxili tələbata və lay təzyiqini saxlamaq üçün neft laylarına yenidən qazın vurulmasına. Bu, böyük həcmdir və əlbəttə, bizə imkan verəcək ki, həm öz tələbatımızı ödəyək, eyni zamanda, Avropa məkanına daha böyük həcmlə çıxa bilək. Məhz bizim bu layihəmiz, eyni zamanda, Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yeni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var. Bunun, düzdür, təsdiq edilmiş həcmi 1 trilyon kubmetrdən çoxdur".

Avropa da öz növbəsində qazın idxalını artırmaq istəyir. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) idarəetmə direktoru Luca Schieppati "Quotidiano Nazionale" saytına müsahibəsində bu kəmərin Avropa, xüsusilə də İtaliya üçün əhəmiyyətini vurğulayıb. O bildirib ki, ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan TAP-la əməliyyatların birinci ilində qitəyə 8 milyard kubmetrdən çox təbii qaz idxal edilib. Həmin həcmin 7 milyard kubmetri İtaliyaya çatdırılıb. Bu, İtaliyanın istehlakının, demək olar ki, 10 faizini təşkil edir.

L.Schieppati həmçinin qeyd edib ki, gələcəkdə TAP-la Azərbaycandan İtaliyaya gələn qaz həcmləri ikiqat artırıla bilər. 2022-ci və 2023-cü illərdə, eləcə də qarşıdakı 25 il ərzində bu kəmərlə müqavilələr çərçivəsində ildə 10 milyard kubmetr təbii qaz nəql olunacaq.

O deyib: "TAP-ın potensialı onun ötürücülük gücünün iki dəfə artırılaraq ildə 20 milyard kubmetrə çatdırılmasına imkan verir. Boru kəmərinin ötürücülük qabiliyyətinin artırılması üçün hazırda bazar sınaqları aparılır. Prosesin təklif mərhələsini cari ilin iyul ayında başa çatdırmağı planlaşdırırıq. Biz TAP-ın ötürücülük qabiliyyətinin illik təxminən 12, 14, 17 və ya 21 milyard kubmetrə qədər artırılması üçün 4 texniki təklif təqdim etmişik. Bunun üçün mövcud kompressor stansiyaları yenilənməli və yeni ölçmə stansiyaları quraşdırılmalıdır. İllik 12 və ya 14 milyard kubmetr təbii qaz nəqli gücünə çatmaq üçün 4 il, 21 milyard kubmetrə çatmaq üçün isə 5 il vaxt lazımdır. Boru kəmərinin ötürücülük gücünün artırılması üçün lazım olan investisiya birbaşa TAP tərəfindən həyata keçiriləcək. Dövlət xərcləri ilə bağlı hər hansı bir ödəniş olmayacaq".

"La Repubblica" qəzetinə müsahibəsində İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio Di Stefano da bildirib ki, TAP-la illik qaz idxalını 10 milyard kubmetrə çatdırmaq istəyirlər.

O deyib: "TAP boru kəməri İtaliyaya enerji qiymətlərindəki artımların zərbəsini yumşaltmağa imkan verdi. TAP layihəsi haqqında danışmağa başlananda hələ ekoloji transformasiyada söhbət getmirdi. Bu gün təbii qaz ekoloji keçidi təmin edən əsas elementdir. Bugünkü vəziyyət məni bu fikirləri deməyə vadar edir - xoşbəxtlikdən TAP var".

Manlio Di Stefano həmçinin qeyd edib: "Biz TAP boru kəməri ilə təbii qaz tədarükünü ildə 7 milyard kubmetrdən 10 milyard kubmetrə çatdırmağı hədəfləyirik. Gələcək perspektivdə TAP boru kəmərinin ötürücülük qabiliyyətinin artırılması nəzərdə tutulur".

Xatırladaq ki, "Cənub qaz dəhlizi"nin Avropa qolu olan TAP kommersiya qaz nəqlinə 2020-ci ilin sonunda başlayıb. Bu, Avropa üçün strateji və iqtisadi əhəmiyyət daşıyan, yeni təbii qaz mənbəyinə etibarlı çıxışı təmin edən bir kəmərdir. TAP Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində və təchizatın şaxələndirilməsində mühüm rol oynayır.

Məlum olduğu kimi, bu kəmərin Azərbaycandan Avropa bazarlarına ildə 10 milyard kubmetr qaz tədarükünü həyata keçirməsi nəzərdə tutulub. TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. 878 kilometrlik kəmərin 550 kilometri Yunanıstanın, 215 kilometri Albaniyanın ərazisindən,105 kilometri Adriatik dənizinin altından keçir və 8 kilometrlik hissəsi İtaliya torpağında sahilə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Yaxın gələcəkdə Azərbaycan qazı daha uzaq ünvanlara çatacaq. Çünki "Cənub qaz dəhlizi" enerji təhlükəsizliyinin təminatındakı strateji əhəmiyyətini Avropa ölkələri arasındakı interkonnektorlarla Qərbi Balkanlara və qitənin digər hissələrinədək genişləndirə bilər. Daha doğrusu, bu, artıq bir tələbata çevrilib.Təsadüfi deyil ki, həmin məsələ cari il fevralın 4-də Bakıda keçirilən "Cənub qaz dəhlizi" Məşvərət Şurasının 8-ci toplantısında da aparıcı mövzulardan olub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## DMA bu il 4 mindən çox işsiz və işaxtaran şəxsi peşə kurslarına cəlb edəcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən 2022-ci ilin planı üzrə 4 mindən çox işsiz və işaxtaran şəxsin peşə kurslarına cəlb edilməsi nəzərdə tutulur.

Bu işlər çərçivəsində agentlik beynəlxalq sertifikatlara uyğun mütəxəssis hazırlığına da başlayacaq.

Hazırda qurum tərəfindən 127 prioritet istiqamət üzrə peşə hazırlığı həyata keçirilir. Peşə hazırlığına həm işsiz və işaxtaranlarınn, həm də peşə təlim mərkəzlərinin onlayn müraciət imkanı yaradılıb. https://dma.gov.az/vetendaslar-ucun-muraciet-formasi doldurmaqla kurslarda iştirak üçün qeydiyyatdan keçmək mümkündür.

Dövlət Məşğulluq Agentliyinin Bakı, Gəncə şəhərlərində və Göyçay rayonunda müasir tələblərə uyğun peşə hazırlığı mərkəzləri fəaliyyət göstərir.

Ötən il agentliyin Bakıdakı Peşə Hazırlığı Mərkəzinə beynəlxalq ISO sertifikatları təqdim edilib. Ölkəmizdə ilk ISO sertifikatlı peşə hazırlığı müəssisəsi olan mərkəz fəaliyyətində ISO 9001 (Keyfiyyət idarəetmə sistemi), ISO 14001 (ətraf mühitin idarə olunması və qorunması sistemi), ISO 45001 (əməyin təhlükəsizliyi sistemi) standartlarının tələblərini də təmin edəcək.

## Payızlıq əkinlərə görə 159,5 min fermerə 61,8 milyon manat subsidiya ödənilib

Aqrar Kredit və İnkişaf Agentliyi 2021/2022-ci il payızlıq əkinlərə görə subsidiyaların ödənişinə başlayıb. Fevralın 15-də AKİA tərərindən payızlıq əkinlərə görə 159500 fermerə ümumilikdə 61.836.000 manat subsidiya ödənişi həyata keçirilib.




Subsidiyalar kənd təsərrüfatı məhsulları istehsalçılarının "Fermer kartı"na köçürülüb. Qanunvericiliyə uyğun olaraq, fermerlər karta köçürülmüş vəsaitinin 25 faizini bankomatlar vasitəsilə nağdlaşdıra, 75 faizini isə qeyri-nağd şəkildə gübrə, pestisid, herbisid, toxum və digər kənd təsərrüfatı istehsal vasitələri almaq üçün sərf edə bilərlər.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2021/2022 mövsümündə taxıl əkinlərinin hər hektarına görə, fermerlərə 210 manat subsidiya ödənilir. Bu gün ödənilən subsidiyalar təxminən 300 min hektara yaxın əkin sahəsini əhatə edir.

Payızlıq əkinlərin bəyanı dekabrın 30-da başa çatıb, ilk subsidiyalar həm də əkinlərini vaxtında bəyan etmiş fermerlərə ödənilib.

Payızlıq əkinlərə görə subsidiyalar təsərrüfat ilinin əvvəlində, fermerlərin aqrotexniki qulluq qaydaları apardığı müddətdə ödənilir. Subsidiyaların fevral-mart aylarında ödənilməsi fermerlərə təsərrüfat fəaliyyəti zamanı vəsaitə olan ehtiyacını təmin edir.

Hazırda payızlıq əkinləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etmiş fermerlərin əkin məlumatları və torpaq sənədlərinin yoxlanması davam edir. Sahələrində monitorinqlər başa çatmış, torpaq sahələrindən verdikləri aqrokimyəvi analizin nəticələrini, sahələri sığorta etdirmələrinə dair müqavilələrin surətini EKTİS-ə daxil etmiş fermerlərin siyahısı hazırlanır və hər həftə bu siyahılar üzrə subsidiyaların ödənilməsi elektron qaydada həyata keçiriləcək. Payızlıq əkinlərə görə subsidiya ödənişlərinin ən optimal müddətdə başa çatdırılması nəzərdə tutulur.

AKİA tərəfindən bu gün həmçinin süni mayalanma yolu ilə alınmış buzovlara görə, təsərrüfat sahiblərinə subsidiyaların ödənişi də həyata keçirilib. EKTİS üzərindən 4993 fermerin kartına ümumilikdə 499300 manat subsidiya köçürülüb.

Subsidiyaların ödənişi davam edəcək.

## Ötən il elektrik enerjisi istehsalı 8 faizə yaxın artıb

2021-ci ildə respublikada ümumi elektrik enerjisi istehsalı 27 855,7 mln. kVt·st olub və 2020-ci illə (25 811,2 mln. kVt·st) müqayisədə 2 044,5 mln. kVt·st (7,9%) artıb.

Energetika Nazirliyindən Trend-ə verilən məlumata görə, 2021-ci ildə respublikada ümumi elektrik enerjisinin istehlakı 23 435,6 mln. kVt·st olub və 2020-ci illə (21 969,9 mln. kVt·st) müqayisədə 1465,7 mln. kVt·st (6,7%) artıb.

2021-ci ildə elektrik enerjisinin istehsalı İES-lərdə 26 238,5 mln. kVt·st, SESlərdə 1277,3 mln. kVt·st, digər mənbələr üzrə isə cəmisi 339,9 mln. kVt·st, o cümlədən KES-lərdə 91,5 mln. kVt·st, GES-lərdə 55,2 mln. kVt·st, bio ES-lərdə 193,2 mln. kVt·st olub.

## Ölkə səviyyəsində keçirilən sığorta maarifləndirilməsi layihəsinin ilkin mərhələsi yekunlaşıb

Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB), Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) və İcbari Sığorta Bürosu (İSB) arasında imzalanmış "Sığorta savadlılığının artırılması, maarifləndirmə, təbliğat və qarşısıalınma tədbirlərinin sistemli və ardıcıl həyata keçirilməsinə dair qarşılıqlı əməkdaşlıq haqqında" Memorandum çərçivəsində ölkə səviyyəsində təşkil olunmuş təbliğat və maarifləndirmə layihəsinin birinci mərhələsi uğurla başa çatıb.

AMB-dən AZƏRTAC-a bildirilib ki, ilk mərhələdə ölkədə fəaliyyət göstərən kütləvi informasiya vasitələri və sosial media kanalları vasitəsilə aparılan maarifləndirmə kampaniyasında əhalidə və biznes dairələrində sığorta sahəsində risk mədəniyyətinin inkişaf etdirilməsi başlıca prioritet olub. Layihə çərçivəsində radio və televiziya kanallarında 60-dan çox maarifləndirici verilişlər təşkil olunub, yazılı mediada isə 90-a yaxın reportaj və xəbərlər dərc edilib. Sığorta sahəsində çox sayda müxtəlif məzmunlu maarifləndirici və təbliğat materialları hazırlanaraq effektiv media kanalları vasitəsilə geniş əhatədə yayımlanması təmin olunub. Şəhərin mərkəzi nöqtələrində yerləşdirilən skroller, tumba, həştaq kimi çöl reklamlarından istifadə edilib, avtobuslarda, taksilərdə və yaşayış binalarının liftlərində reklamlar yerləşdirilib. Nəticədə əhali və biznes dairələrinə onların üzləşdiyi risklər, risklərin yarada biləcəyi itkilərin qarşısının alınmasında sığortanın faydasına dair maarifləndirici mesajlar verilib. Kommunikasiya materialları təxminən 4 milyon baxış əldə edib.

Layihə çərçivəsində görülən işlər sığorta bazarının artım templərində də özünü göstərməyə başlayıb. 2021-ci ilin yekunlarına əsasən sığorta haqlarının həcmi əvvəlki illə müqayisədə 16 faiz artıb. Sığorta savadlılığının artırılması layihəsi növbəti ildə də davam etdiriləcək, əhaliyə sığorta sinifləri ilə bağlı maarifləndirici məlumatlar ötürüləcək.

## Azərbaycan neftinin qiyməti 100 dollara yaxınlaşır

CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti fevralın 14-də 99,7 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,95 dollar/barel çoxdur.



Bu barədə Trend-ə ölkənin neft-qaz bazarındakı mənbə bildirib.

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 98,88 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,95 dollar/barel çoxdur.

Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti isə 91,47 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 1,44 dollar/barel çoxdur.

Şimal dənizindən hasil edilən "Brent Dated" etalon növlü neftin qiyməti 99,72 dollar/barel olub ki, bu da əvvəlki göstəricidən 1,88 dollar/barel çoxdur.

## "Qara Qarayev" sərnişin gəmisi neftçilərə xidmət edir

"Qara Qarayev" sərnişin gəmisi SOCAR-ın "Azneft" İB-yə xidmət edərək Neft Daşlarında çalışanları işə aparıb-gətirəcək .

Gəminin sərnişin tutumu 120 nəfər, uzunluğu 57,6, eni 12,5 metr, maksimal sürəti 40 dəniz milidir. Bununla gəmi sahildən Neft Daşlarına olan yolu saat yarıma qət edəcək.

"Qara Qarayev" artıq ilk səfərini edib. "Azneft"in baş direktoru Şahmar Hüseynov bu hadisənin əhəmiyyətini vurğulayaraq bildirib ki, neftçilərin böyük bir hissəsi növbə dəyişən zaman Neft Daşlarına gedib-gələrkən təxminən 5-6 saatlıq uzun bir yol qət edirdilər. Artıq bu kimi çətinliklər arxada qalıb. Bu gəmi onların səfərlərini rahat və qısamüddətli edəcək.

"Qara Qarayev" gəmisinin neftçilərə xidmət etməsi onların sosial şəraitinin yaxşılaşdırılmasına diqqət və qayğıkeşliyin daha bir nümunəsidir.

## Daha bir piyada keçidinin tikintisi başa çatmaq üzrədir

Hacı Zeynalabdin qəsəbəsi - Sumqayıt istiqamətindəki avtomobil yolunun 3,84-cü kilometrində yerüstü piyada keçidi inşa edilir.



Piyada keçidinin uzunluğu 30, eni 3,5 metrdir. Müasir üslübda inşa edilən keçidin tezliklə istifadəyə verilməsi gözlənilir.

Sözügedən yolun 4,59 və 8,76-cı kilometrlik hissələrində də daha iki piyada keçidinin inşası nəzərdə tutulur. Hazırda layihənin texniki məsələləri həll edilir.

## Kəndliyə və fermerə növbəti dövlət dəstəyi



Aqrar sektora göstərilən dövlət dəstəyi davam edir. Kəndli hələ də torpaq vergisindən savayı, bütün növ vergilərdən azaddır, üstəlik, ona becərilən əkin sahələri üçün subsidiyalar da ödənilir. Bununla yanaşı, fermerlərə gübrə, damazlıq heyvan və bitki tingləri güzəştli qiymətlərlə satılır.

Son dövrlər kənd təsərrüfatında çalışanların güzəştli kreditlərlə təmin edilməsinə də xüsusi diqqət yetirilir. Dövlətin ayırdığı güzəştli kreditlərin 80 faizə qədəri regionlarda fəaliyyət göstərən sahibkarlara verilir. Bölgələrdə isə çalışan sahibkarların böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olur.

Bütün bunlar nəticəsiz qalmır. Məsələn, 2020-ci illə müqayisədə keçən il kənd təsərrüfatında ümumi məhsul istehsalı 3,4 faiz artıb.

Son 15 ildə aqrar sektorda ən çox artım müşahidə edilən sahələrdən biri də meyvəçilikdir. Həmin müddətdə meyvə istehsalı 2 dəfə artıb. Bu da onu təsdiqləyir ki, Azərbaycanın aqrar sektorunda məhsul istehsalında meyvəçiliyin özünəməxsus yeri var. Kənd təsərrüfatı məhsullarının ixracında da bu növ məhsulların çəkisi yüksəkdir. Dövlət tərəfindən ənənəvi bitkilərin inkişafına və yeni meyvə bağlarının salınmasına verilən dəstək də meyvəçilikdə böyük dönüşə səbəb olub.

Bununla yanaşı, meyvə bağlarına görə subsidiyaların verilməsi və ixracın təşviqi məqsədilə vəsaitin ayrılması da fermerlərin bitkiçiliyə olan marağını artırıb. Odur ki, meyvəçilik tərəvəzçilik və pambıqçılıq kimi gəlirli sahəyə çevrilib. Hazırda ölkəmizdə meyvə bağlarının əkin sahəsi genişlənir və daha məhsuldar yeni sortlar əkilir.

Azərbaycanda meyvəçiliyi təbii fəlakət nəticəsində ziyana düşməkdən qorumaq üçün də tədbirlər görülür. Bu məqsədlə meyvə bağlarının sığortalanmasına başlanıb. Məsələn, 10 min manatlıq məhsul gözlənilən badam bağının baza üzrə sığortalanması ölkənin regionlarından asılı olaraq 156-295 manat arasında dəyişir. Bu məbləğin yarısını, yəni 78-148 manatını fermer, qalan hissəsini dövlət ödəyir. Müqayisə üçün deyək ki, kəndli 10 min manatlıq məhsulunu təbii və texnogen qəza nəticəsində itirərsə, 78-148 manat əvəzində 9 min manat sığorta ödənişi alacaq. Məlumat üçün bildirək ki, hazırda ölkə ərazisində 2700 hektar badam bağı var.

### Aqrar sığorta köməyə gəlir

Azərbaycanda qoz ağaclarının əkilməsinin tarixi qədimdir. Ölkədə hazırda 6 min 200 hektardan çox qoz bağları mövcuddur. Əkin sahəsinə görə ən çox qoz bağları Oğuz, Şəki, Zaqatala, Quba, İsmayıllı və Ağcabədi rayonlarındadır. Hazırda 4 min manatlıq məhsul verən qoz bağının baza üzrə sığortalanması ölkənin regionlarından asılı olaraq 83-168 manat arasında dəyişir. Bu məbləğin yalnız 42-84 manatını fermer, qalan hissəsini isə dövlət ödəyir. Onu da vurğulayaq ki, sığorta olunan 4 min manatlıq məhsul tamamilə itirilərsə, onun sığorta ödənişi 3 min 600 manat olacaq.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, Nazirlər Kabinetinin 27 dekabr 2021-ci il tarixli müvafiq qərarı ilə ərik və şaftalı bağları da sığortalanan məhsullar sırasına daxil edilib. Bununla əlaqədar olaraq hazırda ərik və şaftalı bağları dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi çərçivəsində güzəştli sığortaya cəlb olunub. Məqsəd bu növ meyvələri becərən fermerlərin yetişdirdikləri məhsulu müxtəlif risklərdən qorumaqdır.

Hazırda ölkəmizdə 4 min hektar sahədə ərik becərilir. Bu məhsul ən çox Göranboy, Samux, Şəmkir, Bərdə, Tərtər, Şəki, Ordubad və Şərur rayonlarında yetişdirilir. Ərik daxili və xarici bazarda müştərisi olan məhsuldur. Ötən il fermerlər daxili tələbatı ödəməklə yanaşı, xarici bazara 2,2 milyon dollarlıq məhsul ixrac etmişlər.

Qeyd edildiyi kimi, dövlət gəlirli sahə olan ərik bağlarının da sığortalanmasına dəstək verir. Bu növ məhsul yetişdirən fermerlər də dövlətin güzəştli sığortasından yararlana biləcəklər. Ərik bağlarının sığorta haqqı regiondan və məhsuldarlıqdan asılı olaraq dəyişir. Müxtəlif regionlarda ərik bağlarının baza şərti üzrə sığorta tarifləri 2,19 və 4,48 faiz arasında dəyişir.

Azərbaycanda iqtisadi baxımdan ən çox sərfəli olan meyvələrdən biri də şaftalıdır. Hazırda ölkə ərazisində şaftalı bağlarının əkin sahəsi 7,1 min hektara çatıb. Bu meyvə daha çox Xaçmaz, Quba, Şəmkir, Goranboy, Göygöl, Qusar, Şabran və Balakən rayonlarında yetişdirilir. Onu da qeyd edək ki, şaftalı ən çox ixrac olunan və gəlir gətirən meyvədir. Ötən il bu məhsulun ixracından ölkəyə 30 milyon dollardan çox gəlir gəlib.

Dövlət də belə bir gəlirli meyvənin əkinini və ixracını təşviq edir, həmçinin bu məhsulu yetişdirən fermerləri qarşılaşa biləcəkləri risklərdən qoruyur. Hazırda 6 min manatlıq məhsul verəcəyi gözlənilən şaftalı bağının baza üzrə sığortalanması regionlardan asılı olaraq 153-320 manat arasında dəyişir. Bu məbləğin yalnız yarısını - 77-160 manatını fermer ödəyir. Qalan hissəni ödəmək isə dövlətin üzərinə düşür. Təsəvvür edək ki, hər hansı bir təbii fəlakət nəticəsində fermer 6 min manatlıq məhsul itirərsə, ödədiyi cüzi məbləğ qarşılığında 5 min 400 manat sığorta ödənişi əldə edə biləcək.

Bir sözlə, güzəştli aqrar sığorta dövlətin fermerlərə göstərdiyi növbəti dəstəyin təzahürüdür.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Naxçıvan turizmi

## Muxtar respublika cəlbedici bölgəyə çevrilib















Qədim insan və mədəniyyət məskəni, təbii sərvətlər muzeyi olan, "Şərqin qapısı" adlandırılan Naxçıvanın həm də böyük turizm potensialı var.

Təbiət bu ulu diyarımızdan öz səxavətini, təbii gözəlliklərini əsirgəməyib. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, mineral suları, təbii sərvətləri, o cümlədən zəngin maddi və mədəni irsi, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir tərəqqisi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. Təsadüfi deyil ki, böyük inkişaf yolu keçən muxtar respublikada turizmin ümumi daxili məhsulda rolu düzgün dəyərləndirilib və müasir çağırışlara cavab verən turizm infrastrukturu yaradılıb. Naxçıvan Muxtar Respublikasına səfərimiz zamanı bölgənin turizm infrastrukturunun bir qismi ilə tanış olmaq imkanımız da yarandı.

### Dünyanın ən yaxşı 50 mərkəzindən biri

Artıq neçə onilliklərdir ki, turizm bir sıra ölkələrin milli gəlirlərinin formalaşmasında əsas sahələrdən birini təşkil edir. Bu baxımdan hazırda turizmin inkişafı, daha çox turistin cəlb olunması yerləşmə coğrafiyasından asılı olmayaraq dünyanın bir çox ölkəsi tərəfindən təşviq olunur. Azərbaycan tarixən turizm baxımından əlverişli məkan kimi fərqlənib. Prezident İlham Əliyevin inkişaf siyasətinin məqsəd və məramına uyğun olaraq bu potensialdan səmərəli istifadə edilməsi Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilməklə iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi nəzərdən keçirilir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın turizm potensialının hərəkətə gətirilməsi, müxtəlif növlərin yaradılması, bu sahədə sahibkarlığın inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması üçün son illərdə məqsədyönlü işlər görülüb. Muxtar respublika rəhbərliyinin səyləri ilə qədim diyarda həyata keçirilən quruculuq işləri, müalicə mərkəzlərinin yenidən qurulması turizmin inkişafına təkan verib, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artıb. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoyub. Muxtar respublikanın Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvanın son illərdə beynəlxalq tədbirlərə, idman yarışlarına evsahibliyi etməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması və ölkəmizin Gənclər Paytaxtı seçilməsi respublikamızın bu bölgəsinin turizm imkanlarını nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Görülən işlərin nəticəsidir ki, Londonda nəşr olunan "Wanderlust" jurnalında Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzindən biri kimi qeyd olunmuşdur.

### Mükəmməl infrastruktur yaradılıb

Öncə onu qeyd edək ki, Naxçıvan Muxtar Respublikası turizmin inkişafını şərtləndirən əsas göstəricilərə, ilk növbədə, mükəmməl nəqliyyat infrastrukturuna malikdir. Təsadüfi deyil ki, turist məmnunluğunu səciyyələndirən xidmətlərdən biri də nəqliyyat xidmətidir. Naxçıvanın inkişaf konsepsiyasına uyğun olaraq burada ən müasir standartlara cavab verən nəqliyyat infrastrukturu qurulub.

Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından Bakı, Gəncə, İstanbul, Moskva şəhərləri istiqamətlərində uçuşlar həyata keçirilir. Muxtar respublikada 5 avtovağzal var. Naxçıvan şəhərindən muxtar respublikanın bütün yaşayış məntəqələrinə avtobus marşrutları işləyir. 24 saat taksi xidməti göstərilir. Naxçıvan şəhərində turist marşrutu da fəaliyyət göstərir.

Naxçıvanın nəqliyyat baxımından əsas göstəricilərindən biri də muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə rahat asfalt yollarla getməyin mümkün olmasıdır. Nəinki respublika əhəmiyyətli avtomobil yolları, o cümlədən rayonlararası, kəndlərarası şose yolları yenidən qurulub. Vaxtilə yolu olmayan yaşayış məkanlarına yeni yollar çəkilib.

Bütün bunlarla yanaşı, Naxçıvanda tamamilə yeni, beynəlxalq standartlar səviyyəsində hotel infrastrukturu formalaşdırılıb. İndi Naxçıvan şəhərində və muxtar respublikanın əksər rayonlarında turistlərə yüksəksəviyyəli xidmətlər göstərən mehmanxanalar fəaliyyət göstərir. Konkret rəqəmlərlə ifadə etsək, muxtar respublikada 21 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərir. 5 ulduzlu "Təbriz" və "Duzdağ" hotelləri, "Saat Meydanı" Turistik İstirahət Mərkəzi, Ağbulaq İstirahət Mərkəzi və digər turizm obyektlərində yüksək keyfiyyətli xidmətlər təklif olunur. Naxçıvana gələn turistlər büdcəsinə uyğun istirahət məkanı seçməkdə hər hansı çətinliklə üzləşmirlər.

Fasiləsiz təbii qaz və elektrik enerjisi verilişinin olması, yüksək səviyyəli rabitə xidmətinin yaradılması, sürətli internetin istifadəyə verilməsi də muxtar respublikada turizmin inkişafını şərtləndirən amillər sırasındadır.

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla yanaşı, sabitliklə də bağlıdır. Bu iki amilin muxtar respublikada mövcudluğu, qədim diyarın təhlükəsiz region olması turistlərin səfər etməsi və turizmin inkişafı üçün əlavə üstünlüklər yaradır.

### Müalicə və sağlamlıq turizminin unikal ünvanı

Naxçıvan təbiətinin özəllikləri bu diyarda müalicə turizminin inkişafına geniş imkanlar yaradır. Bu baxımdan Duzdağ Fizioterapiya Mərkəzi artıq uzun illərdir ki, nəinki Azərbaycanda, ölkəmizin hüdudlarında da fərqli bir müalicə mərkəzi kimi tanınır və muxtar respublikanın turistlər üçün cəlbediciliyini artırır.

Xatırladaq ki, unikal müalicə obyekti olan Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında fəaliyyətə başlayıb. Mərkəzdə yuxarı tənəffüs yollarının allergik xəstəlikləri müalicə edilir. Müalicənin effekti uşaqlarda 95, böyüklərdə isə 75-80 faiz təşkil edir. Mərkəz dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşir. Duzdağ Fizioterapiya Mərkəzində ilin bütün fəsillərində müsbət 18-20 dərəcə temperatur rejimi və təbii ventilyasiya olur.

Naxçıvanda olarkən Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə də tanış olduq. Mərkəzin baş həkimi Heyran Qazıbəyovanın sözlərinə görə, bənzərsiz təbii şəfa mənbəyi olan bu mərkəzdə tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılıb. Ötən il mərkəzin müasir standartlara cavab verən inzibati binasının istifadəyə verilməsi isə bu sahəyə olan dövlət qayğısının əyani ifadəsidir. Bu həm də turist qəbulu üçün imkanları daha da artırdı. Öyrənirik ki, xarici ölkələrdən gələnlər arasında Rusiya, Türkiyə, İran və Qazaxıstan vətəndaşları üstünlük təşkil edir.

Ekoloji təmiz hava, günəş radiasiyasının bolluğu ilə yanaşı, təbii mineral sularla zəngin olması Naxçıvanda sağlamlıq turizminin inkişafına əhəmiyyətli təsir edir. Azərbaycanın mineral su ehtiyatının 60 faizi Naxçıvan Muxtar Respublikasının payına düşür. Mineral suların təbii "muzeyi" adlandırılan muxtar respublikanın 5,5 min kvadratkilometrlik sahəsində 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır. "Badamlı", "Sirab", "Vayxır", "Gülüstan", "Böyrək suyu" və digər mineral suların bəzilərindən süfrə suyu kimi, bəzilərindən isə müalicə məqsədi ilə istifadə edilir.

Güclü müalicəvi əhəmiyyətə malik olan yeraltı sərvətlərdən biri də Culfa rayonunda çıxan Darıdağ arsenli mineral suyudur. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada Kudova, Almaniyada Dürkgeym, Rusiyada Sineqorsk sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan daha üstündür. Darıdağ arsenli termal suyu dayaq-hərəkət sistemi, qoturluq, sarıyara, piyadermeya kimi bir çox dəri xəstəlikləri üçün müalicəvi əhəmiyyətə malikdir.

Darıdağ Arsenli Su Müalicəxanası müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi, həmçinin "Darıdağ" Termal Hotelin tikintisi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaq.

### Kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənd

Şahbuz rayonunun Ağbulaq kəndi ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənddir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Şahbuz rayonunun Ağbulaq kəndində kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi malik olduğu zəruri infrastruktura görə ilin hər fəslində asudə vaxt keçirmək istəyənlər üçün zəngin imkanlar vəd edir. Naxçıvan şəhərindən təxminən bir saatlıq məsafədə olan Ağbulağın təmiz və günəşli havası turistləri bura cəlb edən ilk cəhətlərdəndir.

Buradakı istirahət mərkəzi müasir kamp məkanı üçün tələb olunan hər cür rahatlığa malikdir. Öyrənirik ki, istirahət mərkəzinə gələn turistlər üçün ümumi tutumu 76 nəfər olan 38 standart otaq fəaliyyət göstərir. Bütün otaqlar yüksək komfortlu hotel standartlarına uyğun olan şəraitlə təmin edilib. Ağbulağa gəlmiş turistlər 4G sürətli internetə də qoşula bilirlər. Mərkəzdə xizəksürmə xidmətindən başqa turistlərə müxtəlif servislər də təklif olunur. Turistlər əyləncə ilə yanaşı, Naxçıvan mətbəxinin ləziz təamlarından və təbii ərzaq məhsullarından dadmaq fürsəti qazanırlar.

Mərkəzdə çalışanların hamısı Ağbulaq və ətraf kəndlərin sakinləridir. Kənd turizminin ən gözəl nümunələrindən olan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ümumilikdə ölkəmizin inkişafına xidmət edir. Ağbulaq həm yerli, həm də xarici turistlər üçün cazibədar məkana çevrilib. Təmiz hava, təbii qida, yaradılan lazımi infrastruktur imkan verir ki, mərkəz muxtar respublikanın inkişafında xüsusi rol oynasın.

Naxçıvanın digər rayonlarında da kənd turizmi üçün əlverişli imkanlar mövcuddur. Xüsusən qədim diyarın Biçənək, Kükü, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd turizmi inkişaf edib. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlərə həm də bütün zəruri xidmətlər təklif olunur. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Bu baxımdan muxtar respublikanın kənd yaşayış məntəqələrinə gələn turistlər həm də onlarca çeşiddə təmiz ekoloji məhsullarla tanış olmaq imkanı əldə edirlər.

### Ən müasir standartlara cavab verən Ağbulaq Xizək Mərkəzi

Qış aylarında qar ehtiyatının çox olması isə Ağbulaqda xizəkçilik üçün münbit şərait yaradır. Turizmi daha da inkişaf etdirmək üçün kənddəki istirahət mərkəzinin yaxınlığında dağ-xizək mərkəzinin qurulması da qərara alınıb. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşməsi, qış aylarında qar ehtiyatının çox olması və dağ-xizək mərkəzi üçün müvafiq landşafta malik olması Ağbulaq kəndi yaxınlığındakı ərazinin seçilməsinə əsas verib.

Ağbulaq Xizək Mərkəzi 2021-ci il fevralın 17-də istifadəyə verilib. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən mərkəzdə uzunluğu 1580 metr olan dağ-xizək sahəsi, əyləncə və uşaq parkları, süni göl yaradılıb. Kanat yolunda hər biri 4 yerlik olan 59 oturacaq vardır ki, bu da saatda 1000-dən artıq turistə xidmət etməyə imkan verir.

Ağbulaq Xizək Mərkəzi qışda xizək idman növlərinə maraq göstərən və hər yaşdan olan insanlar üçün sərfəli qiymətə istirahət və əyləncə dolu zəngin təəssürat vəd edən ideal məkandır. Yaradılmış xizəksürmə infrastrukturu ən müasir komfort, erqonomika və təhlükəsizlik standartlarına cavab verir. Qış aylarında burada həmişə qar olsa da, xizəksürmə həvəskarlarına davamlı xidmətlər göstərə bilmək üçün süni qar yaratma sistemləri də quraşdırılıb.

Naxçıvanda idman turizminin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu baxımdan Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi muxtar respublikada ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ilə yanaşı, yeni turizm istiqamətlərinin, o cümlədən idman turizminin də inkişafı üçün geniş imkanlar yaradıb. 2021-ci ilin aprel ayından istifadəyə verilmiş Uzunoba Təlim-Məşq İdman Kompleksi Naxçıvanda idman turizminin inkişafı baxımından əhəmiyyətli hadisələrdəndir.

### Naxçıvan nümunələri

Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, həmçinin pirlər, imamzadələr, qədim məscidlər dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilib. Əshabi-Kəhf ziyarətgahı ən qədim zamanlardan müqəddəs bir yer, ulu Tanrıya inam, ümid bəsləyən, ilahi gücə inanan insanların səcdəgahı kimi şöhrət qazanıb. Ziyarətgaha Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər gəlir.

Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur. Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması mənəvi dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır.

Əsrarəngiz təbiəti, mineral sərvətləri, tarixi-dini abidələri ilə yanaşı, Naxçıvan mətbəxinin zəngin olması da turizmə təsir edən amillərdəndir. Azərbaycan mətbəxinə məxsus yeməklərlə yanaşı, Naxçıvan mətbəxinin özünəməxsus yeməkləri də var. Arzuman küftəsi, balqabaq doldurması, maş şorbası, müxtəlif növ plovlar, qurut aşı, qovurma, dikçə dolması, kabablar, xoşablar, ballı qayğanaq, sucuq, alana, şirniyyatlar və s. Naxçıvan mətbəxi öz zənginliyi, heyrətamiz dadı ilə qonşu xalqların mətbəxinə də təsir edib. Naxçıvanın ekoloji təmiz havası, günəş şüasının bolluğu və digər amillərin təsiri nəticəsində bu torpağın yetirdiyi meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənirlər.

Naxçıvan turizmi davamlı inkişaf yolundadır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublika sürətlə turistlər üçün daha cəlbedici bölgəyə çevrilir. Yaxın gələcəkdə isə turizmin muxtar respublikanın ümumi daxili məhsulunda payının daha da yüksələcəyini söyləmək olar. Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvana gələn turistlərin sayı da dəfələrlə artacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qrip, yoxsa «Omikron»?

## Pandemiya ilə mübarizədə vaksinasiya əsas şərt olsa da, sosial məsafəyə, qayda-qanunlara əməl etmək də vacibdir

*Əvvəli 1-ci səh.*

Artıq, belə demək mümkünsə, ilk qorxu, təlaş, vahiməli günlər arxada qalıb. Koronavirusun qarşısının alınmasında əsas və mühüm məsələ olan vaksinasiya müəyyən müddətdir ki, davam etdirilir.

Səhiyyə naziri Teymur Musayev bildirib ki, hazırda rəhbərlik etdiyi nazirlik təkcə səhiyyə sektorunda deyil, digər aidiyyəti qurumlarla birlikdə fəaliyyət göstərir: "Bu sektorda fəaliyyətin daha da təkmilləşdirilməsi üçün lazımi addımların atılmasını labüd bilirik. Səhiyyənin keyfiyyətcə yeni müstəviyə qaldırılmasında orta və qısamüddətli addımlar nəzərdə tutulub".

Nazirin sözlərinə görə, pandemiyanın ilk günlərindən başlayaraq vətəndaşların sağlamlığının qorunması əsas hədəflərdən biri olub: "Yeni tibb müəssisələri açıldı, tələb olunan müasir dərman vasitələri ölkəyə gətirildi, vaksin platformalarına əlçatanlıq tam təmin edildi. Müasir standartlara uyğun tibbi statistik bazanın formalaşdırılması, iqtisadi şəffaflığın artırılması, azad olunmuş ərazilər də daxil olmaqla ölkə üzrə tibbi xidmətlərin artırılması, tibb işçilərinə rəqəmsal bacarıqların artırılması beynəlxalq reytinqdə ölkəmizin irəli getməsindən xəbər verir. Strategiya çərçivəsində böyük layihələr həyata keçiriləcək".

Səhiyyə naziri onu da xüsusi olaraq vurğulayıb ki, ölkəmizdə koronavirusla əlaqədar məhdudlaşdırıcı qərarlara ehtiyac yoxdur. Sərt karantin tədbirləri xəstəxanaya yerləşdirilənlərin sayının kəskin artması və çarpayı fondunun dolması əsasında verilir. Hazırda sanitar-epidemioloji vəziyyət qənaətbəxşdir.

Bu gün insanları düşündürən əsas suallardan biri belədir: "Eyni anda həm qripə, həm də koronavirusa yoluxanlar xəstəliyi necə keçirir?" Çünki son vaxtlar koronavirusla yanaşı, qrip xəstəliyinin də geniş yayıldığının şahidiyik. Xüsusilə qripə yoluxanlar bu xəstəliyi əvvəlki dövrlərə nisbətən daha ağır keçirdiyini bildirir və bunu müxtəlif səbəblərlə əlaqələndirirlər.

Bəs qripə yoluxanların sürətlə artmasına və ağırlaşmalara səbəb nə ola bilər? Qrip və koronavirus bədəndə eyni anda mövcud olub, ağırlaşmaya səbəb ola bilərmi?

İnfeksionist Nicat Əzimli qripə yoluxan insanlarda da ağırlaşmaların ola biləcəyini deyir: "Bəzi şəxslər koronavirusa yoluxduqları halda bunu qəbul etmir və özlərini qrip adlandırır. Lakin qrip də müəyyən hallarda ağırlaşmalara gətirib çıxarır. Belə ki, orqanizm zəifdirsə, xəstəlik müddətində ağırlaşma halları yaşana bilir. Koronavirusla yanaşı, xəstəliklər, yaşın çox olması, artıq çəki və digər problemlər ağırlaşmalara səbəb ola bilirsə, digər infeksion xəstəliklərdə də müxtəlif səbəblər ağırlaşma yaradır. Qrip xəstəliyi üçün də bu, xarakterik haldır".

İnfeksionist koronavirusa və qripə eyni anda yoluxmanın ağırlaşma halları yarada bildiyini də diqqətə çatdırır: "İki virusun eyni zamanda orqanizmə yoluxması koinfeksiya, bir virus bədəndə olduğu halda digər virusa yoluxmaya isə superinfeksiya deyilir. Bu hallar infeksion xəstəliklərdə yaşana bilir. Bəzən bu iki halın hər birində ağırlaşmalar daha çox qeydə alınır. Bunun da səbəbi orqanizmin iki xəstəliktörədici infeksiya ilə mübarizə aparmaq məcburiyyətində qalması və immun sisteminin yüklənməsidir. Buna görə də ağırlaşmalar qeydə alınır. Məsələn, hepatit D virusu təklikdə insan orqanizminə heç bir ziyan vura bilmir, amma hepatit B xəstəsinə hepatit D virusu da yoluxarsa, o zaman kəskin ağırlaşmalar yaşanır və qısa müddətdə qaraciyər serrozu yaranır. Belə halların olması elmlə təsdiqlənib və digər infeksion xəstəliklərdə də baş verə bilir".

Mütəxəssisləri narahat edən bəzi məqamlar da var. Bu, istər türkəçarə, istərsə də koronavirusdan qorunmaq üçün qeyri-mütəxəssislərin "müalicə üsulları"dır. Hətta, nəinki səhiyyə işçilərinin, xüsusən də infeksionistlərin tövsiyə və məsləhətlərini bəzən qulaqardına vuran "işbazlar" da peyda olurlar.

COVID-19-dan qorunmağın ən yaxşı yolu vaksinasiya olunmaq, məsafə saxlamaq, maskadan istifadə etmək və əlləri tez-tez və hərtərəfli təmizləməkdir. COVID-19-a yoluxanların əksəriyyətində yüngül və ya orta dərəcədə simptomlar olur və tibbi yardımla sağala bililər. Öskürək, yüksək hərarət və ya nəfəs almaqda çətinlik çəkirsinizsə, mütləq həkimə müraciət etməlisiniz.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







# Ermənistan iqtisadiyyatı "can verir"

## Ölkənin olan-qalan iqtisadi imkanı məmurlar arasında paylara bölünüb

*Əvvəli 1-ci səh.*

Əgər kimsə hər hansı bir dövlət məmuruna, məsələn, 20 min dollar rüşvət verməlidirsə, onda rüşvət verən əvvəlcədən razılaşdırılmış qumarxanaya gedir və orada qumar oynayaraq nə az, nə çox, düz 20 min dollar uduzur. Sonra rüşvət alanın özü və yaxud etibarlı adamı həmin qumarxanaya gələrək 19 min dolları alıb aparır. Qumarxana isə 1000 dolları göstərdiyi xidmətlər üçün özünə saxlayır. Qeyd olunur ki, İrəvanda və digər şəhərlərdə fəaliyyət göstərən qumarxanaların hamısı birbaşa və dolayısı ilə oliqarx-məmurlara məxsusdur.

Bu arada müharibədəki ağır məğlubiyyətdən sonra erməni rəsmilərinin ölkədə iqtisadi inkişaf barədə pafoslu çıxışlarına baxmayaraq, miqrasiya böyük problem kimi qalmaqdadır. "4rd.am" saytında bununla bağlı sosioloqların rəsmi məlumatı və İrəvanda keçirilən rəy sorğusunun nəticələri dərc olunmuşdur. Məqalədə qeyd olunur ki, 2021-ci ilin son 6 ayı ilə müqayisədə 2022-ci ilin ilk aylarında 7 mindən çox erməni ölkəni tərk edib.

İrəvan sakinləri arasında bununla bağlı aparılan sorğunun nəticələri də acınacaqlıdır. Rəyi soruşulanların 46 faizi ölkəni tərk etməyə hazır olduqlarını bildiriblər. Ermənistandan çıxıb getmək istəyənlər arasında gənclər üstünlük təşkil edirlər. Artıq onların 62 faizi potensial miqrantdır. Rəyi soruşulan kişilərin 50, qadınların isə 42 faizi ölkədən getmək istəyir. Sorğuda iştirak edənlərin 32 faizi işsizliyə, 30 faizi heç bir perspektiv olmamasına, 20 faizi isə ədalətsizliyin hökm sürməsinə görə Ermənistanı tərk etmək istədiklərini bildiriblər.

Əslində Ermənistan əhalisi arasında miqrasiya etmək istəyənlərin sayı bundan da çoxdur. Bildirilir ki, buna 44 günlük müharibənin ağır nəticələri, ölkədəki gərgin vəziyyət də daxildir. Çoxları ölkənin gələcəyi ilə bağlı qeyri-müəyyənlik ucbatından Ermənistanı tərk edirlər: "Ermənistan sakinlərinin mühacirət coğrafiyası Rusiya ilə məhdudlaşmır. Sadəcə indi orada qanuni yaşamaq və işləmək hüququ əldə etmək imkanı Qərb ölkələrindən qat-qat asandır".

Ümumiyyətlə, yaşı 65-dən yuxarı olan sakinlərin nisbəti 7 faizdən çox olarsa, ölkə əhalisi qoca sayılır. Bir tərəfdən əhalinin qocalması gözlənilən ömür uzunluğunda müsbət dəyişikliklərdən xəbər verirsə, digər tərəfdən bu, ciddi sosial və iqtisadi problemlərə gətirib çıxarır. Xüsusilə pensiyaların məbləğinin artırılması imkanları məhduddur və bu, vergilərin artırılması zərurətinə səbəb olur. Əhalinin qocalması prosesi Ermənistandan da yan keçməyib. BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin hesablamalarına görə, ötən il Ermənistanda yaşı 64-dən yuxarı olan insanlar əhalinin ümumi sayında 10 faizi ötüb.

Görünən odur ki, Ermənistanda daxili siyasi, sosial-iqtisadi vəziyyət daha da mürəkkəbləşməyə doğru gedir. Bu isə İrəvanın məhvinin daha sürətlə yaxınlaşması deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri fevralın 14-ü saat 18:45-dən başlayaraq Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Barmaqbinə yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini heç bir səbəb olmadan fasilələrlə atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 15-i saat 01:40 radələrində Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətindən Tovuz rayonunun Ağbulaq yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz də atəşə tutulub.

Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Göygöldə Vətən müharibəsi qazilərinə və şəhid ailələrinə diqqət artırılır



Göygöl rayonunda Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinin üzvlərinə böyük diqqət və qayğıkeşlik göstərilir. Onların bütün problemləri diqqətlə dinlənilir və həll olunur. Bu sahədə icra hakimiyyətində yeni yaradılmış Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi xüsusi rol oynayır.

Elvin Əkbərov Vətən müharibəsində yaralanmışdır. Qazi 1984-cü ildə Zurnabad kəndində anadan olmuşdur. 2001-ci ildə kənd məktəbinin 11-ci sinfini bitirdikdən sonra 2004-cü ilin yanvar ayınadək həqiqi hərbi xidmət keçmişdir. 2018-ci ildə "N" saylı hərbi hissədə müddətdən artıq hərbi xidmətə başlamışdır. 27 sentyabr 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayanda o da döyüşlərə atılmış, Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Sentyabrın 28-də Kəlbəcər istiqamətində gedən döyüşlərdə yaralanaraq III qrup əlil olmuşdur.

Elvin Əkbərov Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən fərqləndiyinə görə "Hərbi xidmətə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Bu günlər qazi Göygöl Rayon İcra Hakimiyyətinə müraciət edərək bir neçə məsələnin həlli üçün kömək istəmişdir. O, icra hakimiyyətindən məişət şəraitinin yaxşılaşdırılması, sığorta ödənişinin verilməsi, həmçinin avtomaşın növbəsinə götürülməsi üçün yardım istəmişdir. Qazinin müraciətləri xüsusi nəzarətə götürülmüşdür. Elvin Əkbərov icra hakimiyyətindən razı qaldığını bildirmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Goranboyda abadlıq və yenidənqurma işləri genişləndirilib





Son illər Goranboyda həyata keçirilən abadlıq və yenidənqurma işlərinin genişləndirilməsi nəticəsində rayonun siması tamamilə dəyişmişdir. Xüsusilə rayon mərkəzində görülən işlər diqqəti daha çox cəlb edir.

Havaların əlverişli keçməsi başlanan abadlıq işlərini davam etdirməyə imkan verir. Məhz buna görə Goranboy rayon mərkəzinin abadlaşdırılması, küçə və səkilərin yenidən qurulması, kommunal xətlərinin yenilənməsi, şəhərin gecə işıqlandırılmasının təmin edilməsi, çoxmənzilli yaşayış binalarının təmiri və digər işlər ön plana çəkilmişdir. Şəhidlər Xatirə Kompleksində də yenidənqurma işləri aparılmış, şəhid ailələri və digər imtiyazlı ailələr üçün inşa edilmiş 16 mənzilli yaşayış binasının mənzillərinə kombi sistemi çəkilmişdir. Hazırda qəzalı 4 yaşayış binasının yerində inşa ediləcək yeni binaların layihə-smeta sənədləri hazırlanır. Yaxın vaxtlarda tikinti işlərinin başlanılması nəzərdə tutulur.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

◆ **Dünya gündəmi**

# Oman Sultanlığını daşqınlar vurdu

## Mənzillər, avtomobillər sel sularına qərq oldu



**Oman polisi ölkənin Mülki Müdafiə İdarəsi ilə birlikdə daşqına görə öz avtomobillərindən çıxa bilməyən 25-dən çox insanı xilas edib. Bol yağıntılar Mascat əyalətinin əksər hissəsində müşahidə olunub.**

Rusiyanın Federal Xəbərlər Agentliyi yerli polisə istinadən bildirir ki, paytaxtın əl-Huvey rayonunda minik avtomobilində qalmış iki qadın, həmçinin Sultan Kabus küçəsində avtobusun yeddi sərnişini xilas edilibdir.

"Biri əcnəbi olan üç nəfər əl-Qubranın cənub hissəsində güclü yağışlar zamanı avtomobildə qaldıqdan sonra xilas olunub. Onlar sağlamdırlar", - deyə polisdə əlavə ediblər.





Öz növbəsində, Muttra rayonunun sakinləri yaşadıqları evlərinin damlarına çıxmağa və xilasediciləri gözləməyə məcbur olublar.

Fevralın 14-də gecədən səhərədək Maskatın beynəlxalq hava limanında 9,6 mm, paytaxtın özündə 1,4 mm, Vadi əl-Maavil şəhərində (Cənubi Al-Batina əyaləti) 3,2 mm yağıntı qeydə alınıb.

Oman Sultanlığı son bir neçə aydır ki, dağıdıcı daşqınlardan əziyyət çəkir. Fevralın əvvəlində növbəti leysan əcnəbi fəhlənin həyatına son qoymuş, yanvarın əvvəlində isə təbii fəlakət nəticəsində altı nəfər həlak olmuşdur.

2021-ci ilin oktyabr ayında "Şahin" siklonu ölkə ərazisini vurmuşdu və o, ölüm hallarına, dağıntılara, habelə insanların itkin düşməsinə səbəb olmuşdur. İyulda daşqın zamanı isə bir nəfər ölmüş və üç nəfər itkin düşmüşdür.

Müşahidə olunan hava anomaliyaları BMT-nin 2021-ci il tarixli hesabatına uyğun gəlir. Sənəddə bildirilir ki, XXII əsr üçün Yaxın Şərqdə orta temperatur 3 dərəcə artacaq.

Bəzi bölgələrdə istiləşmə səhralaşmanın sürətlənməsi ilə, bəzi bölgələrdə isə yağıntıların və daşqınların sayının artması səbəbindən nəmləndirmə və bataqlaşma ilə müşayiət olunacaq. Məhz bu hal hazırda Oman Sultanlığının şimal sahillərində müşahidə olunur.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

Xəzər Dəniz Neft Donanması gəmiləri üçün mexaniki ehtiyat hissələrinin satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 22 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Hüseynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


# Dağlıq ərazilərdə qar yağacağı gözlənilir

Azərbaycanda fevralın 16-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 2-4°, gündüz 7-10° isti, Bakıda gecə 2-4°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 770 millimetr civə sütunu, nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, fevralın 16-da Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimal edilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-10° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, gündüz 0-5° şaxta olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° şaxta, dağlarda 15°-dək şaxta, gündüz 0-5° şaxta olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-10° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 7-10° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 6-10° isti, dağlarda gecə 2-5°, gündüz 0-2° şaxta olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov yazıçı-publisist
**ƏFQAN ƏLƏSGƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları, "Həyat" qəzetinin baş redaktoru, yazıçı-publisist
**ƏFQAN ƏLƏSGƏROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və şöbənin əməkdaşları Eldar Əsgərov, Aqşin Məmmədzadə, Sarvan Sadıqov, Kəmalə Paşayeva, Sədaqət Bağırova, Tamerlan Şeyxzamanov, Ramil Cəfərov, Mahir Süleymanlı, Samir Yusifov, Ramin Cəlilov, Fərid İsrafilov, Əfsanə Nəsirova, Nəzrin Əliyeva və Mətanət Qəmbərova Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradova anası
**İRADƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi Xocavənd rayonu üzrə Maliyyə şöbəsinin rəisi
**İBRAHİM HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdir müavini Rövşən Muradova anası
**İRADƏ MURADOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin deputatı Musa Qasımlıya anası
**SİDİQƏ KAZIMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyevə atası, AMEA-nın Geologiya və Geofizika İnstitutunun Metasomatizm və metamorfizm şöbəsinin rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor
**CƏBRAYIL AZADƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Hesablama Palatasının rəhbərliyi və kollektivi Hesablama Palatası Aparatının rəhbəri Vüqar İbrahimova anası
**RÜBABƏ İBRAHİMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımova anası
**SİDİQƏ KAZIMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımova anası
**SİDİQƏ KAZIMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ramiz Cəbrayılov ailəsi ilə birlikdə Kənd Təsərrüfatı Nazirliyi Heyvandarlığın inkişafı və monitorinqi şöbəsinin sektor müdiri Tərlan Əsgərova bacısı
**FİRUZƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5491
Sifariş 442
Qiyməti 40 qəpik